İnnovasiyalı inkişafın investisiyalaşdırılması inteqrasiya əlaqələrinin intensivləşməsi ilə müşayiət edilirsə, sinergetik effektin yaranması gözlənilən hesab edilir. Əks halda, yeniliklərin daimiliyi əks effekt yarada bilər. Aşağıdakı mənbədə göstərildiyi kimi, "bir çox təşkilatlar davamlı təkmilləşdirmə (innovasiya) proqramlarının zaman keçdikcə daha az təsirli olduğunu görüb təəccüblənirlər. Aşağı budaqdakı meyvələr yığıldıqca şirkətlər təkmilləşdirmə proqramlarından maksimum yararlanmaq üçün Sənaye 4.0 metodlarından istifadə etmək qərarına gəlirlər. Unutmaq olmaz ki, bu halda ölçmədiyiniz şey sizə çox baha başa gələ bilər" [16, *s.150]*.

Doğrudan da, innovasiya proqramlarında, heç də həmişə ənənəvi təsərrüfatçılıq sistemində fasiləsiz yeniliklərin, cari istehsal və xidmətin xarakteristikalarına təsiri hərtərəfli və detallı şəkildə nəzərə alınmır. Aqrar-sənaye sahələrində, xüsusilə innovasiyalı modernləşdirmə şəraitində belə yanaşma, innovasiyalı fəaliyyətə keçid dövründə müəssisənin ölçülməyən, lakin əhəmiyyətli itkilərlə üzləşməsinə səbəb ola bilir. İnnovasiya layihələrinin investisyalaşdırılması sisteminin səmərəliliyi allokasiya effekti hesabına artırıla bilər.

Aqrar-sənaye sahələrində innovasiyalı fəaliyyətə yönəldilən investisiyalar öz səmərəliliyinin davamlı müsbət dinamikası üçün dayanıqlı inkişaf tələblərinə və yaşıl iqtisadiyyat konsepsiyasına uyğun istehsal və xidmət texnologiyalarının sistem əmələ gətirən geniş tətbiqinə, resursların qarşıya qoyulmuş məqsəd baxımından ən səmərəli bölgüsünü nəzərdə tutan allokasiya effektinin reallaşdırılmasına yönəldilməlidir [17, s.107-114]. Bununla belə, aqrar-sənaye sahələrində məhsul innovasiyaları ilə nəticələnən proses innovasiyalarının xüsusi çəkisi əhəmiyyətli deyilsə, əksər hallarda allokasiya effektinin investisiyaların səmərəliliyinə nəzərəçarpan təsiri müşahidə edilmir. Aqrar-sənaye sahələrində investisiya güzəştlərindən hazırda daha fəal istifadə edilməsi üçün sistem əmələ gətirən iqtisadi və institusional xarakterli tədbirlər görülməli, innovasiya fəallığını nəzərəçarpacaq dərəcədə artıra bilən tədbirlər qismində texnoloji

transfer fəaliyyəti stimullaşdırılmalıdır. Bu və digər məqsədlərlə, aqrobiznes təmsilçilərinin assosiasiya və birliklərdə təşkilatlanması prosesinin sürətlənməsi təşviq edilməlidir. Sənaye parkları və aqroparklar istiqamət və struktur göstəriciləri baxımından sistem əmələ gətirməli, rəqəmsal innovasiya infrastrukturunun inkişafı tempi yüksəldilməlidir. Bu məqsədlə aqrar-sənaye sahələrində müxtəlif istehsal sahələrinə investisiya qoyuluşlarının səmərəliliyinin arzu edilən səviyyəsinin əldə edilməsi baxımından dövlət və özəl bölmə tərəfdaşlığının imkanları gerçəkləşdirilməlidir.

İnnovasiyalı inkişafa investisiyaların səmərəliliyinin yüksəldilməsində mühüm amil investisiya layihələri arasında optimal variantın seçilməsidir. Bu məqsədlə, çoxmeyarlı yanaşma daha məhsuldar hesab edilir. Həmin yanaşma, habelə müvafiq idarəetmə qərarlarının keyfiyyətini artıra bilir [18, s.93-98].

Müasir dövrdə aqrar-sənaye innovasiyalarına yönəldilən investisiyaların səmərəliliyinin yüksəldilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini təklif edirik: müvafiq normativ-hüquqi bazanın, rəqəmsal mühitin tələbləri, o cümlədən kibertəhlükəsizlik tələbləri nəzərə alınmaqla möhkəmləndirilməsi; sənaye parklarında, məhəllələrində və aqroparklarda yaradılmış aqrobiznes təmsilçilərini əhəmiyyətli xərclərdən azad edən infrastrukturdan daha fəal surətdə və geniş miqyasda istifadə edilməsi; inşa edilən yeni istehsal və xidmət obyektlərinin rəqəmsal infrastruktura birbaşa qoşulması imkanları layihələndirmə mərhələsində nəzərə alınmaqla, inşaat-montaj xərcləri və işlərin keyfiyyəti, habelə müddəti arasında optimal nisbətin təmin edilməsi; kənd təsərrüfatı mənşəli və digər xammalla təminatının operativliyinin və fasiləsizliyinin təmin edilməsi, ehtiyatların optimallaşdırılması; insan kapitalının inkişafının və intellektual potensialın fəallaşdırılmasının təşviqi; texnoloji transferlər üçün zəruri iqtisadi-institusional mühit yaratmaqla, müvafiq rəqəmsal infrastrukturunun formalaşması proseslərinin sürətləndirilməsi; məhsul innovasiyalarına məsrəflərin innovasiyalara ümumi məsrəflərdə payının artırılması sayəsində müəssisələrin innovasiyalara həssaslığının təşviqi, elmi innovasiyaların kommersiyalaşması səviyyəsinin yüksəldilməsi; aqrar-sənaye fəaliyyətində innovativliyin yüksəldilməsi, o cümlədən əqli mülkiyyətin daha səmərəli mühafizəsinin, modernləşdirmənin innovasiyalı tipinin təşviqi, autsorsinqin tətbiqi dairəsinin genişləndirilməsi; innovasiyalara investisiyaların tənzimlənməsi üzrə qərarların riyazi modelləşdirmə və rəqəmsal texnologiyalar tətbiq edilməklə çoxvariantlı ssenarilər əsasında hazırlanması; investisiya bazarında informasiyanın assimmetriyası problemlərinin kəskinliyinin azaldılması; innovasiyalı inkişaf baxımından investisiya resurslarının bölgüsündən əldə edlən allokasiya effektinin təmin edilməsi; investisiya mühitinin tənzimlənməsi və investisiya fəaliyyətinin idarə edilməsi sisteminin səmərəliliyinin yüksəldilməsi.

## Nəticə

Aqrar-sənaye sahələrində innovasiyaların investisiyalaşdırılmasında ehtiyatların likvidliyinin investisiya fəaliyyətinin səmərəliliyinə təsiri hərtərəfli qiymətləndirilməlidir. İnvestisiya bazarında rəqabətin təşviqi məqsədi ilə istifadə olunmamış potensialdan istifadə səmərəliliyini yüksəltmək imkanları informasiyanın assimmetriyası ilə ciddi surətdə məhdudlaşır. Odur ki, aqrar-sənaye sahələrində innovasiyalı fəaliyyət subyektlərinin təşkilatlanması təşviq edilməli, investisiya bazarında informasiya assimmetriyasını şərtləndirən subyektiv amillərin təsiri minimuma endirilməlidir. Maliyyəyə çıxışın asanlaşdırılması, zəmanət və kredit sisteminin təkmilləşdirilməsi sayəsində aqrar sənaye sahələrində istehsal biznesinin fəallığının miqyasına və kütləviliyinə ciddi müsbət təsir göstərə bilər. İnnovasiyalı inkişafa investisiyaların səmərəliliyi risklərin bölgüsündə inteqrasiya effektindən yararlanma səviyyəsindən asılıdır. Rəqəmsal mühitdə, böyük ehtimalla investisiyaların səmərəliliyini şərtləndirən amillərin verilənlər bazasının innovasiyalı inkişaf tələblərinə adekvat reaksiya imkanları genişlənəcəkdir.

***Ədəbiyyat***

1. Karlibaeva, Raya & Kurbonov, Khairulla & Bekimbetova, Gulnora & Shaturaev, Jakhongir. (2022). The Effectiveness of Investment Projects in Development of Innovative Activities of Enterprises. European Business & Management. 8. 62-71. 10.11648/j.ebm.20220803.11
2. Капорцева О.Н. Эффективность инноваций и пути ее повышения. https://elib.bsu.by›bitstream
3. Hüseynov, T. & Hüseynov, F. (Noyabr 2021). "Aqrar-sənaye sahəsində innovasiya proseslərinə əsaslanan dayanıqlı inkişafın təmin edilməsi istiqamətləri." Kənd təsərrifatı iqtisadiyyatı, №4 (38), s. 28-38).
4. Li, Lin & Li, Fei & Liu, Fengwei. (2015). Influencing Factors of Firms' Investment Efficiency. International Journal of Sociology Study. 3. 58-60. 10.12783/ijss.2015.03.012
5. Heidi Quah, Janto Haman, Dharmendra Naidu. The effect of stock liquidity on investment efficiency under financing constraints and asymmetric information: Evidence from the United States. First published: Accounting & Finanse, 11 July 2020. https://doi.org/10.1111/acfi.12656
6. Иваницкий В. П., Татьянников В. А. Информационная асимметрия на финансовых рынках. Вызовы и угрозы // Экономика региона. 2018. Т. 14, вып. 4. С. 1156-1167 doi 10.17059/2018–4–8
7. Дубовик М. И. Асимметрия информации на финансовом рынке - источник нестабильности в экономике РФ // Публичные и частные финансы в инновационной экономике. Мат-лы междунар. науч.-практ. интернет-конф., 2017. 292 с. С. 79–86
8. Самусева Т.В. Асимметрия информации на рынке реальных инвестиций // Вестник Алтайской академии экономики и права. 2020. № 12-2. С. 392-398; URL: https://vaael.ru/ru/article/view?id=1525 (дата обращения: 07.01.2023, s.393
9. "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Bakı, 2011).
10. Стрельцова Н. В., Сидорова Е.Е., Живолуп Д. И. Повышение эффективности инвестиционной политики промышленного предприятия// Региональная экономика: 8-2014, с.30-33
11. Ragulina, Julia, Vladimir Ukolov, and Oleg Shabunevich. 2021. Adaptation to the Risks of Digitalization: New Survival Trends for States in a Multipolar World. *Risks* 9: 218. https://doi.org/10.3390/risks9120218
12. Jakhongir Shaturaev. Efficiency of Investment Project Evaluation in the Development of Innovative Industrial Activities ASEAN Journal of Science and Engineering 3(2) (2023) 147-162. Journal homepage: http://ejournal.upi.edu /index.php/AJSE/
13. Goran Radman, Ana Belin. Competitiveness in Technology and Innovation: How to Keep On? Digital texnology & Economy. Vol 2, No 1 (2017)

14. Головина Т.А., Авдеева И.Л., Суханов Д.А. Управление рисками организаций в условиях цифровой экономики // Вестник Академии знаний. 2022. №1 (48). URL: https://cyberleninka.ru/article/n/06.01.2023
15. Letiagina, Elena & Malov, Dmitry. (2021). Investment Risk Management under Conditions of Digitalization. SHS Web of Conferences. 93. 02006. 10.1051/shsconf/ 20219302006
16. Селиверстов А. С. Влияние непрерывного улучшения на рентабельность инвестиций «Молодой учёный». № 17 (359). Экономика и управление. Апрель 2021 г., *с.150-152*
17. Antony, A. , & Joseph, A. I. (2017). Influence of behavioural factors affecting investment decision- An AHP analysis. Metamorphosis, 16(2), 107–114. 10.1177/0972622517738833
18. Isai, Oksana & Olha, Romashko & Semenov, Andriy & Sazonova, Tetiana & Podik, Ivanna & Hnatenko, Iryna & Rubezhanska, Viktoriia. (2021). Methods of multi-criteria evaluation of economic efficiency of investment projects. Journal of Project Management. 93-98. 10.5267/j.jpm.2021.1.001).

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, aprel - iyun, 2023, səh. 60 - 69
Scientific Reviews in UNEC, Year 11, Volume 11, April - June, 2023, pp. 60 - 69

# DÜNYA İQTİSADİYYATINDA RƏQƏMSAL TRANSFORMASİYALAR: TENDENSİYALAR VƏ PERSPEKTİVLƏR

*Daxil olub: 27 aprel 2023-cü il*
*Qəbul olunub: 22 may 2023-cü il*
*Received: 27 April 2023*
*Accepted: 22 May 2023*

***Tusi Alkərəmov***
*doktorant, Bakı Dövlət Universiteti*
*aparıcı analitik, AR Mərkəzi Bankı*
*tusi.alkaramov@gmail.com*

**Xülasə**
Məqalədə dünya iqtisadiyyatında rəqəmsal transformasiyalar: tendensiyalar və perspektivlər müzakirə edilmişdir. Tədqiqatın praktiki əhəmiyyəti sənaye inqilabı şəraitində dünya iqtisadiyyatının rəqəmsal transformasiyasının kəmiyyət və keyfiyyət təhlili metodlarının işlənib hazırlanması, riyazi hesablamalara əsaslanan ölkələrin rəqəmsallaşma indeksinin yaradılmasından ibarətdir. Tədqiqatın nəzəri əhəmiyyəti dünya iqtisadi əlaqələrinin yeni modeli kimi dünya iqtisadiyyatının rəqəmsal transformasiyası prosesini əsaslandırmaqdan ibarətdir ki, bunun da maddi əsasını yeni rəqəmsal texnologiyalar təşkil edir. Tədqiqatın obyekti qlobal iqtisadiyyatda rəqəmsal transformasiya prosesidir. Tədqiqatın metodoloji əsası kimi rəqəmsallaşma problemlərinə dair nəşrlərdə təqdim olunan fundamental konsepsiyalardan, eyni zamanda analiz, sintez, deduksiya, induksiya, sistem yanaşması, müqayisəli təhlil, sistem-struktur yanaşma üsullarından istifadə edilmişdir.
Nəticə olaraq, qeyd etmək olar ki, tədqiqatın nəzəri və metodoloji əhəmiyyəti rəqəmsal transformasiya vasitəsilə bir sıra nəzəri müddəaların və metodoloji aspektlərin inkişaf etdirilməsindən ibarətdir. Hazırlanmış nəzəri müddəalar və metodoloji aspektlər xidmət iqtisadiyyatının səmərəli idarə edilməsi, rəqəmsal transformasiya problemləri üzrə gələcək fundamental və tətbiqi elmi tədqiqatların aparılmasında istifadə oluna bilər.

***Açar sözlər:*** *rəqəmsal texnologiyalar, rəqəmsal iqtisadiyyat, dünya iqtisadiyyatı, informasiya bazası.*

# DIGITAL TRANSFORMATION IN THE WORLD ECONOMY: TRENDS AND PERSPECTIVES

***Tusi Alkaramov***
*Doctoral student at Baku State University*
*Lead analyst, Central Bank of the Republic of Azerbaijan*
*tusi.alkaramov@gmail.com*

**Abstract**
Digital transformations in the world economy: trends and perspectives were discussed in the article. The practical importance of the research lies in the development of

quantitative and qualitative analysis methods of the digital transformation of the world economy in the conditions of the industrial revolution, and the creation of the digitization index of countries based on mathematical calculations. The theoretical importance of the study is to justify the process of digital transformation of the world economy as a new model of world economic relations, the material basis of which is new digital technologies. The object of the study is the process of digital transformation in the global economy. The methodological basis of the research was based on the fundamental concepts presented in the publications on digitization problems, as well as the method of analysis, synthesis, deduction, induction, system approach, comparative analysis, and system-structure approach.
In conclusion, it can be noted that the theoretical and methodological importance of the research consists in the development of a number of theoretical propositions and methodological aspects through digital transformation. The developed theoretical propositions and methodological aspects can be used in conducting future fundamental and applied scientific research on the efficient management of the service economy and the problems of digital transformation.

***Keywords:*** *digital technologies, digital economy, world economy, information base.*

## ЦИФРОВЫЕ ТРАНСФОРМАЦИИ В МИРОВОЙ ЭКОНОМИКЕ: ТЕНДЕНЦИИ И ПЕРСПЕКТИВЫ

***Туси Алкарамов***
*докторант, Бакинский государственный университет,*
*ведущий аналитик, Центральный банк Азербайджанской Республики*
*tusi.alkaramov@gmail.com*

**Резюме**

В статье рассмотрены цифровые трансформации в мировой экономике: тенденции и перспективы. Практическая значимость исследования заключается в разработке методов количественного и качественного анализа цифровой трансформации мировой экономики в условиях промышленной революции и создании индекса цифровизации стран на основе математических расчетов. Теоретическая значимость исследования заключается в обосновании процесса цифровой трансформации мировой экономики как новой модели мирохозяйственных отношений, материальной основой которой являются новые цифровые технологии. Объектом исследования является процесс цифровой трансформации в мировой экономике. Методологическую основу исследования составили фунда-

ментальные концепции, представленные в публикациях по проблемам цифровизации, а также методы анализа, синтеза, дедукции, индукции, системный подход, сравнительный анализ, системно-структурный подход.
В заключение можно отметить, что теоретико-методологическая значимость исследования заключается в разработке ряда теоретических положений и методологических аспектов посредством цифровой трансформации. Разработанные теоретические положения и методологические аспекты могут быть использованы при проведении в будущем фундаментальных и прикладных научных исследований по вопросам эффективного управления сервисной экономикой, проблемам цифровой трансформации.

***Ключевые слова:*** *цифровые технологии, цифровая экономика, мировая экономика, информационная база.*

## Giriş

Hazırda rəqəmsal texnologiyalar dünya iqtisadiyyatının artımının və texnoloji inkişafının əsas mühərriklərindən biridir. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, demək olar ki, hər bir sahənin transformasiyasına səbəb olub. Dünya inkişaf tendensiyalarına əsaslanaraq, rəqəmsal iqtisadiyyat iqtisadiyyatın inkişafında bilavasitə mühüm rol oynadığını qeyd edə bilərik. Bu gün davamlı inkişaf sahəsində yeni texnologiyalar xüsusi yer tutur və iqtisadi məqsədlərə çatmaqda mühüm rol oynayır. Rəqəmsallaşma populyar bir tendensiya kimi dünya ölkələrinin milli iqtisadiyyatının bütün sahələrinə getdikcə daha çox daxil edilir. Rəqəmsal iqtisadiyyat tamamilə yeni bilik, bacarıq və yanaşmalar tələb edir, ona görə də bu mövzunu nəzərdən keçirmək olduqca vacibdir. Dünyada bir çox texnoloji şirkətlər iqtisadi proseslərdə böyük rol oynayır və onların rolu günü-gündən artır. Bütün bunlar əmək bazarına və insanların ixtisaslaşmasına təsir göstərir.
Rəqəmsal iqtisadiyyatın üstünlükləri ondan ibarətdir ki, o, iqtisadi artıma, səriştəli iş yerlərinin artmasına və dövlət idarəçiliyinin təkmilləşdirilməsinə töhfə verir. Rəqəmsal texnologiyalar informasiya bazasını artırır, informasiya xərclərini azaldır və informasiya məhsulları yaradır. Bu, məlumatı tapmağı və paylaşmağı asanlaşdırır. Bu, həmçinin biznes subyektlərinin əməkdaşlığının gücləndirilməsinə töhfə verir ki, bu da öz növbəsində şirkətlərin fəaliyyət tərzinə, bu ölkələrin vətəndaşları və hökumətləri arasında qarşılıqlı əlaqəyə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu dəyişikliklər təkcə iqtisadi əməliyyatlara deyil, həm də qadınların işçi qüvvəsində iştirakına təsir göstərir. Rəqəmsal texnologiyalar həmçinin əlilliyi olan insanların ünsiyyət rahatlığına və insanların asudə vaxtlarının təşkilinə təsir göstərir.

Rəqəmsal iqtisadiyyatın formalaşması üçün rəqəmsal qeydin hüquqi əhəmiyyəti, istifadəçilərin ehtiyaclarına diqqət, infrastrukturun, platformaların və ekosistemlərin inkişafı kimi prinsipləri vurğulamaq da vacibdir. "Rəqəmsal iqtisadiyyat" termini rəqəmsal texnologiyaların istifadəsinə əsaslanan iqtisadi, sosial və mədəni münasibətlər sistemi kimi başa düşülə bilər" [1, s. 85]. Rəqəmsal iqtisadiyyatın əsas məqsədləri arasında bütün əsas istehsal və iqtisadi proseslərin hərtərəfli avtomatlaşdırılması, fərdiləşdirilmiş istehsal və istehlak bazarının inkişafı, təsərrüfat subyektlərinin ümumi səmərəliliyinin artırılması, biliklərin səfərbər edilməsi mübadiləsi, yüksək texnologiyalı sənaye sahələrində yeni iş yerlərinin yaradılması təklif edilir.

**Rəqəmsal iqtisadiyyatın inkişafı**

Rəqəmsal iqtisadiyyat termin kimi rəqəmsal texnologiyalara əsaslanan iqtisadiyyata aiddir. Məhsul və xidmətlərin rəqəmsallaşdırılması həm özəl, həm də dövlət sektorunun inkişafı üçün iqtisadi artım və sağlam rəqabət mühitinin yaradılması üçün mühüm amildir. Rəqəmsal iqtisadiyyatın inkişafı xüsusilə inkişaf etmiş ölkələrdə özünü göstərir. Rəqəmsal iqtisadiyyatın inkişafı işə qəbul prosesini sadələşdirib, məsələn, menecer işə qəbul saytında ərizə yerləşdirə, iş axtaran isə elektron poçt vasitəsilə vakansiyaya CV göndərə bilər. Rəqəmsal iqtisadiyyata aşağıdakılar daxildir: sosial media, onlayn ticarət, bulud hesablamaları, mobil veb xidmətləri və s.

Rəqəmsal texnologiyalar müştərilərin gələcəyin bazarlarını formalaşdıracaq yeni xidmət və mallarla daha sürətli təmin edilməsi yolu ilə innovasiyaların artması və iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması ilə bağlı praktiki problemlərin həlli üçün yeni əsas yaradır. Rəqəmsal texnologiyalar yeni rəqəmsal məkan yaradır [6]. Bu baxımdan, qlobal iqtisadi məkanda çoxsaylı iştirakçılar üçün əhəmiyyətli bir sıra məlumatlara çıxış açılır. Burada ehtiva olunan məlumat texnologiya ilə birlikdə dövlətin, biznesin və vətəndaş cəmiyyətinin aparıcı aktivlərindən birinə çevrilir.

Hazırda rəqəmsal texnologiyalar dünya iqtisadiyyatının artımı və texnoloji inkişafının əsas mühərriklərindən biridir. Rəqəmsal texnologiyaların tətbiqi dünya iqtisadiyyatının müxtəlif sektorlarının rəqabət qabiliyyətinin artırılmasına, rəqəmsal qlobal dəyər zəncirlərinə qoşulma baxımından yeni biznes imkanlarının yaradılmasına, yeni bazarların və nişlərin yaranmasına, yeni rəqəmsal malların qlobal miqyasda sürətlə tətbiqinə kömək edir. Rəqəmsallaşma prosesi dünyanın müxtəlif ölkələrində eyni vaxtda baş vermir və buna görə də, milli iqtisadiyyatların rəqəmsallaşma dərəcəsində müəyyən boşluq var ki, bu da rəqəmsal uçuruma və nəticədə inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatının zəifləməsinə səbəb olur.

Dünya iqtisadiyyatının rəqəmsal transformasiyası prosesi qeyri-bərabərdir və dünyanın müxtəlif ölkələri müxtəlif dərəcədə təsirlənir. "XX əsrin ikinci yarısından etibarən informasiya texnologiyalarının inkişafına əsaslanan rəqəmsal iqtisadiyyata keçid dünyanın bir çox ölkələrinin iqtisadi inkişafında getdikcə daha mühüm rol almaqdadır" [2, s.48].
Rəqəmsallaşma populyar bir tendensiya kimi dünya ölkələrinin milli iqtisadiyyatının bütün sahələrinə getdikcə daha çox daxil edilir. O, bütün məlumatları virtual məkana ötürməyə, həmçinin əsas aləti İnternet məkanı olan yeni biznes modelini formalaşdırmağa imkan verir ki, bu da öz növbəsində anbar və pərakəndə satış yerlərini boşaltmaqla müəssisənin xərclərini azaltmağa kömək edəcək. Həmçinin yeni biznes modeli mal və xidmət istehsalçısı ilə müştərilər, təchizatçılar, dövlət qurumları arasında qarşılıqlı əlaqə mexanizmini tamamilə dəyişəcək [5].
Müasir dünyada həyatın yüksək tempi rəqəmsal texnologiyaların cəmiyyətin bütün sahələrində geniş tətbiqi ilə səciyyələnir. Bu, dünyanın müxtəlif ölkələrinin iqtisadi və sosial quruluşunun adi modellərinin dəyişdirilməsi üçün ilkin şərtlər yaradır [4]. Rəqəmsallaşma texnologiyaları, iqtisadi, sosial və təşkilati prosesləri, mal və xidmətlərin təchizatçıları, satıcıları və istehlakçıları arasında qarşılıqlı əlaqə yollarını yenidən qurmaqdır. Digər tərəfdən, rəqəmsallaşma davam edən islahatların alətlərindən birini təmsil edən əhali üçün yüksək həyat keyfiyyətini təmin edir [3]. Bu, xüsusilə koronavirus pandemiyasının dünya ölkələrində adi həyat tərzinə öz düzəlişləri etdiyi anda aktualdır.
Rəqəmsal inqilab insan həyatının bütün sahələrini dəyişdirdi. Rəqəmsal transformasiya fenomeninin ən mühüm aspektlərindən biri rəqəmsal iqtisadiyyat şəklində özünu büruzə verir. Rəqəmsal iqtisadiyyatın inkişafı əsasən sənaye inqilabının dördüncü dalğası ilə bağlıdır. XX əsrin sonlarından etibarən rəqəmsallaşma paradiqması cəmiyyətin müxtəlif aspektlərini sürətlə dəyişdirdi. Rəqəmsal iqtisadiyyat bir anda yaranmış anlayış deyil, təkamül prosesi onu formalaşdırıb.
Rəqəmsal iqtisadiyyat üç mərhələdən ibarətdir:

- Əsas mərhələ. Bu mərhələ rəqəmsal iqtisadiyyat üçün infrastruktur rolunu oynayan informasiya və kommunikasiya texnologiyaları ilə bağlıdır.
- Rəqəmsal şəkildə yaranan mərhələ. Bu mərhələ rəqəmsal dövrdə doğulan və bu dövrün məntiqi ilə formalaşan və xidmət göstərməklə məşğul olan texnologiya sahibkarları və rəqəmsal nəhəngləri nəzərdə tutur. Bu şirkətlər əsasən platforma tiplidir və paylaşma iqtisadiyyatı konsepsiyalarına uyğundur.
- Ənənəvi sənaye mərhələsi. Bu qrup rəqəmsal dövrdən əvvəl mövcud olan və rəqəmsal immiqrantlar kimi məhsuldarlığı və innovasiyanı yaxşılaşdırmaq üçün rəqəmsal transformasiya imkanlarından yararlanmaq istəyən müəssisələrdir.

Ümumiyyətlə, rəqəmsal iqtisadiyyatı insanlar, təşkilatlar və texnoloji infrastrukturlar arasında ekosistem qurmaq üçün dəyər yaratmağın rəqəmsal texnologiyalara əsaslandığı və onun onurğa sütununun kommunikasiya olduğu bir iqtisadiyyat kimi təqdim etmək olar.

Rəqəmsal iqtisadiyyatda sağ qalmaq üçün insan innovativ olmalıdır. Rəqəmsal iqtisadiyyatda məhsul və xidmətlərin qısa ömür dövrünü nəzərə alsaq, innovasiya uğurlu biznesin əsas strategiyasıdır. Bu iqtisadiyyatın aparıcı təşkilatlarına nəzər saldıqda onların öz dövrlərində innovasiyaların qabaqcılları olduğunu görə bilərik.

Rəqəmsal iqtisadiyyatın növbəti xüsusiyyəti qloballaşmadır. Bu iqtisadiyyatda rəqəmsal texnologiyalar və kommunikasiyanın inkişafı sayəsində qlobal biznes minimal çətinliklərlə inkişaf edə bilər. Rəqəmsal iqtisadiyyatda istehsalçılarla istehlakçılar arasında ünsiyyət artıb və onlar arasındakı məsafə azalıb. Çünki rəqəmsal texnologiyalar coğrafi sərhədləri məhv etmək iqtidarına malikdir. Rəqəmsal iqtisadiyyatın ən mühüm xüsusiyyətlərindən biri ekosistem düşüncəsidir. Bu iqtisadiyyatda rəqabət anlayışı keçmişdən fərqlidir və təşkilatlar təkbaşına uğur qazana bilməyəcək. Rəqəmsal iqtisadiyyatda dünən rəqib hesab edilən müəssisələr bu gün əməkdaş ola bilər. Bu iqtisadiyyatda aktorlar şəbəkəsi ən yüksək dəyəri yaratmaq üçün birlikdə işləyir. Məlumat mərkəzliliyi rəqəmsal iqtisadiyyatın başqa bir xüsusiyyətidir. Bu iqtisadiyyatda informasiyanın əsas rolu bəzilərinin yeni iqtisadiyyatı informasiya iqtisadiyyatı ilə eyniləşdirməyə və rəqəmsal dövrün yanacağı kimi məlumatlara istinad etməyə səbəb oldu. Rəqəmsal iqtisadiyyatda qərar qəbul etmək üçün əsas məlumatların təhlilindən əldə edilən fikirdir. Rəqəmsal iqtisadiyyatın növbəti xüsusiyyəti mərkəzsizləşdirmədir. Rəqəmsal texnologiyaların və simsiz rabitənin inkişafı ilə dünyanın hər yerində biznesi inkişaf etdirmək mümkündür. Bu məsələ bu iqtisadiyyatda hakimiyyətin və sərvətin bölüşdürülməsinə səbəb olmuşdur. Mərkəzsizləşdirmə rəqəmsal iqtisadiyyatın əsas xüsusiyyətlərindən biridir, bu faktor da cəmiyyəti daha çox demokratiyaya və şəffaflığa doğru sövq edir. Bu iqtisadiyyatda bazarların mahiyyəti də dəyişib və iqtisadi fəaliyyətlər platforma yanaşması ilə əvvəlkindən fərqli şəkildə həyata keçirilir. Bugünkü rəqəmsal iqtisadiyyatın aparıcı şirkətləri rəqəmsal platforma təmin etməklə istehsalçı və istehlakçı ilə ən asan şəkildə onlayn qarşılıqlı əlaqəsini təmin edir.

Şəbəkə effektləri rəqəmsal iqtisadiyyatın başqa bir xüsusiyyətidir. Bu iqtisadiyyatda bir çox məhsul və xidmətlərin dəyəri onların istifadəçilərinin sayından asılıdır. Bu gün biz platforma bizneslərində hər yerdə olduğundan daha çox şəbəkə effektlərini görə bilərik. Bir çox belə müəssisələrin dəyəri çox sayda istifadəçinin olması nəticəsində yaranan şəbəkə effektlərindən asılıdır.

## Metodologiya

Tədqiqatın nəzəri və metodoloji əsasını yerli və xarici alimlərin innovativ inkişafın idarə edilməsi və rəqəmsal texnologiyaların yayılması problemlərinə dair əsərləri, həmçinin elmi tədqiqat metodlarının kompleksi: dialektik, tarixi, abstrakt-məntiqi, sistemli və situasiya yanaşmaları, struktur-funksional təhlil üsulları, empirik ümumiləşdirmə, müqayisə və qruplaşdırma, statistik və hesablanmış məlumatlar təşkil edir.

Tədqiqat zamanı elmi biliklərin statistik və ekonometrik üsullarından, deduksiya, induksiya, analiz, sintez, qruplaşdırma və təsnifat metodlarından isifadə edilmişdir. Tədqiqatın metodoloji əsasını sistemli yanaşmanın ümumi elmi prinsipləri təşkil edir, bunlara təhlil üsulları - məntiqi, faktorial, müqayisəli, strateji, idarəetmə və s. nümunə göstərmək olar.

Məqalənin tədqiqat metodları xarici və yerli alimlərin dünya iqtisadiyyatının inkişafı problemlərinə, rəqəmsal texnologiyaların qlobal iqtisadi artımda rolu və təsirinə, qlobal iqtisadiyyatın xüsusiyyətlərinə metodoloji yanaşmalar təşkil edir. Tədqiqatın müəyyən müddəaları sosial-iqtisadi sistemlərin rəqəmsal inkişafı üzrə milli, regional və sektoral proqram və strategiyaların hissələrini innovasiya siyasəti, perspektivli xidmət bazarlarının inkişafı, xidmət fəaliyyətinin səmərəliliyinin artırılması, yüksək texnologiyaların inkişaf etdirilməsi zamanı tətbiq edilə bilər.

**Rəqəmsal transformasiyanın iqtisadi təsirləri**

Rəqəmsal transformasiyanın ortaya çıxması ilə müəssisələr transformasiya olunur, bu baxımdan da onların səmərəliliyi və gəlirliliyi artır. Yeni texnologiyaların tətbiqi ilə yaşayış və iş tərzini dəyişdirəcək yeniliklər ortaya çıxdı. İnformasiya rəqəmsal aktivə çevrilib, alətlər və proseslər işçi qüvvəsinin vəziyyətini yaxşılaşdırır. İnsanların bacarıqları artır, bizneslər ortaq platforma ilə güclənir. Rəqəmsal transformasiya cəmiyyətə müxtəlif səviyyələrdə təsir göstərir.

İnkişaf etmiş ölkələrin rəqəmsal transformasiya sahəsindəki plan və fəaliyyətlərinin araşdırılması göstərir ki, rəqəmsal transformasiyanın ən mühüm nailiyyətləri iqtisadi məkanda özünü göstərir. İnkişaf etməkdə olan ölkələr üçün rəqəmsal iqtisadiyyatın iqtisadi artımı təşviq edəcəyinə, kapital və əmək məhsuldarlığını artıracağına, əməliyyat xərclərini azaldacağına və qlobal bazarlara çıxışı asanlaşdıracağına dair kifayət qədər sübutlar var. Bu iddialar sadəcə bir fərziyyə deyil və rəqəmsal iqtisadiyyat inkişaf etməkdə olan bazarlarda hər il 15-25% sürətlə böyüyür. “Bu gün müxtəlif dövlətlərin ÜDM-də rəqəmsal iqtisadiyyatın payı əhəmiyyətli yer tutmağa başlayır. Bu göstəriciyə görə, Böyük Britaniya 12,4% ilə liderlik edir və proqnozlara görə, 2035-ci ilə qədər rəqəmsal iqtisadiyyatın həcmi 16 trilyon dollar təşkil edəcək” [7].

Rəqəmsal iqtisadiyyat, xüsusən də inkişaf etməkdə olan ölkələrdə sürətlə inkişaf edir və müxtəlif mənaları və meyarları ehtiva edir. İnternetin inkişafı bu gün dünyanı rəqəmsal iqtisadiyyata aparıb. Rəqəmsal irəliləyişlər və yeniliklər, o cümlədən mobil xidmətlər, bulud hesablamaları və biznes kəşfiyyatı bu dəyişiklikləri təkmilləşdirdi və əvvəllər gözlənilməyən bir çox xidmət və rahatlıq təmin etdi. İnkişaf etməkdə olan texnologiyalarda irəliləyiş prosesləri, sistemləri və iqtisadi sektorları, biznes modellərini, qarşılıqlı əlaqələri və istehlakçı davranışlarını dəyişdirdi.

İnkişaf etməkdə olan rəqəmsal texnologiyalar və onlarla əlaqəli yeniliklər iqtisadiyyatı bilik iqtisadiyyatı, innovasiya iqtisadiyyatı, onlayn iqtisadiyyat, yeni iqtisadiyyat, elektron iqtisadiyyat, rəqəmsal iqtisadiyyat və şəbəkə iqtisadiyyatı kimi fərqli adlarla təqdim etdi. Rəqəmsal iqtisadiyyat mikro və makro- iqtisadiyyatdan, təşkilat və idarəetmə nəzəriyyəsindən asılı olan mürəkkəb və inkişaf edən bir fenomendir.
Rəqəmsal transformasiyanın iqtisadi təsirlərindən biri onun işçi qüvvəsinə təsiridir ki, bu da iki aspektdən araşdırıla bilər. Birinci baxış üçün əsas fərziyyə odur ki, tapşırıqların avtomatlaşdırılması, onları robototexnikaya qoşması və süni intellekt və nitqin tanınması kimi sahələrdə texnologiyanın gücü ilə birləşdirilməsi bəzi iş yerlərinin yox olmasına gətirib çıxaracaq. İkinci perspektiv üçün əsas fərziyyə ondan ibarətdir ki, bütün iş yerləri avtomatlaşdırma ilə əvəz edilə bilməz və hətta yeni innovasiyaların qəbulu ilə məhsuldarlığı artıran ikinci dərəcəli iş yerləri yaradılacaq.
Qeyd edək ki, bəzi tədqiqatçılar innovasiyalar nəticəsində yaradılan iş yerlərinin innovasiya nəticəsində itirilən iş yerlərini heç vaxt kompensasiya etməyəcəyini iddia edirlər. Dünya İqtisadi Forumu Accenture konsaltinq şirkəti ilə birgə apardıqları araşdırmada qlobal rəqəmsallaşmanın 2020-ci ilə qədər iki milyondan iki milyarda qədər iş yerini azaldacağını təxmin etmişdi. Təbii ki, bu təhlil rəqəmləşdirmənin bəzi sənaye sahələrində iş yerləri yaradacağını deməyə əsas verir. Məsələn, nəqliyyat və elektrik enerjisi sənayesində 6 milyon iş yeri açılacaqdır.

**Rəqəmsal iqtisadiyyatın əsas üstünlüyü**

Rəqəmsal iqtisadiyyatın əsas üstünlüyü iqtisadiyyatın rəqabət qabiliyyətliyidir.
Rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyalar və elektron cihazlara əsaslanır. Digər ölkələrdə və cəmiyyətlərdə informasiya texnologiyalarının genişlənməsi ənənəvi iqtisadiyyatı əvəz etdi. İnternet mağazaları rəqəmsal iqtisadiyyatda genişləndiyi üçün bir çox alış və satış internet vasitəsilə həyata keçirilir və mağazalar arasında rəqabət qlobal səviyyədə baş verir. Bank xidmətləri, pul köçürmələri, onlayn alış-veriş, rəqəmsal iqtisadiyyat sistemində xidmətlərin göstərilməsi daha sürətlə həyata keçirilir və bu üstünlük bir çox iqtisadi işlərin rəqəmsal şəkildə yerinə yetirilməsinə səbəb olub. Pulun formasının kağızdan elektrona dəyişdirilməsi rəqəmsal iqtisadiyyatın digər üstünlüklərindən biridir. Rəqəmsal iqtisadiyyatda işlərin çoxu maşınla həyata keçirilir. Əməyin istifadəsi azalır, başqa sözlə kapital əməyi əvəz edir və nəticədə işsizlik artır. XXI əsr rəqəmsal marketinq əsridir, çünki dünya əhalisinin əksəriyyəti sosial şəbəkələrə və internetə qoşulub. Rəqəmsal marketinqin inkişafına sosial şəbəkələrin populyarlaşması kömək etdi. Müxtəlif sosial media platformaları var: Facebook, Instagram, LinkedIn, Twitter, Pinterest, Youtube və s. Sosial mediadan istifadə edən şirkətlər üçün ən populyarları: Facebook, Twitter, LinkedIn və rəqəmsal marketinqdə fəal şəkildə istifadə olunan bloqlardır. Facebook dünyanın ən geniş yayılmış sosial

şəbəkəsidir. Bu gün bir çox müəssisələr "Facebook"da reklamı kifayət qədər sərfəli hesab edirlər.

Məlumdur ki, müasir problemlər müasir həllər tələb edir, ona görə də dünyada pandemiya başlayanda bir çox şirkətlər və təhsil müəssisələri uzaqdan idarəetmə rejiminə keçiblər. Bu, ən sürətlə böyüyən rəqəmsal iqtisadiyyata gətirib çıxardı və həmçinin turizm və kino sənayesi kimi sektorları xilas etdi.

Ölkəmiz artıq rəqəmsal iqtisadiyyatın və rəqəmsal bazarların uyğunlaşdırılması baxımından müəyyən nailiyyətlərə malikdir. Xüsusilə, şəbəkələr, informasiya və kibertəhlükəsizlik baxımından ölkəmizdə mühüm irəliləyiş əldə edilib.

Rəqəmsallaşma fonunda rəqəmsal marketinq populyarlaşdı ki, bu da kiçik və orta müəssisələr üçün həlledici əhəmiyyət kəsb edir. Ona görə də müasir firmaların rəqəmsal marketinqə çox diqqət yetirməsi və ondan mühüm marketinq vasitələrindən biri kimi istifadə etməsi zəruridir. Pandemiya zamanı bir çox onlayn platformalar inkişaf edib, beləliklə, belə qənaətə gələ bilərik ki, pandemiya rəqəmsal dünya üçün yeni imkanlar mənbəyinə çevrilib.

Müasir dövrü rəqəmsal texnologiyasız təsəvvür etmək mümkün deyil, o, insanların həyatında xüsusi yer tutub. Rəqəmsal inqilab tez bir zamanda cəmiyyətin həyatını dəyişdirə bildi və sonsuz imkanlar yaratdı. Bu gün davamlı inkişaf sahəsində yeni texnologiyalar xüsusi yer tutur və iqtisadi məqsədlərə çatmaqda mühüm rol oynayır.

Rəqəmsal iqtisadiyyatın formalaşması həm müasir biznes dünyasının liderlərinin, həm də bütövlükdə ölkələrin rəqabət qabiliyyətinin səviyyəsini müəyyən edən mühüm amildir. Texnologiyanın inkişafı və rəqəmsal iqtisadiyyat alətlərinin istifadəsi baxımından lider olan ölkələr adətən yüksək rəqabət qabiliyyəti və davamlı inkişafla xarakterizə olunur.

Rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyalardan, elektron ticarətdən və internet iqtisadiyyatından istifadə etməklə mal və xidmətlərin istehsalı, satışı və istehlakı ilə bağlı istənilən iqtisadi fəaliyyəti əhatə edir. Müxtəlif ölkələrdə rəqəmsal iqtisadiyyat sahəsində bəzi startapların heyrətamiz uğurundan sonra və xüsusən də İnternet nəhənglərinin kapitallaşması iqtisadiyyatın ənənəvi sektorunda fəaliyyət göstərən ən böyük müəssisələrin kapitallaşmasına bərabər olduqda və onu üstələdikdə rəqəmsal iqtisadiyyatın əhəmiyyəti daha da artdı.

Müasir texnologiyalar, xüsusən də süni intellekt əmək bazarında ciddi dəyişikliklərə səbəb olur, iqtisadiyyatın bir sektorunda iş yerlərinin azalması, digər sektorlarda isə kütləvi artım müşahidə olunur. Rəqəmsal iqtisadiyyat tamamilə yeni bilik, bacarıq və yanaşmalar tələb edir, ona görə də bu mövzunu nəzərdən keçirmək olduqca vacibdir.

İsveçrə professoru V.Brennerin fikrincə, rəqəmsal texnologiyalardan fəal istifadə biznes modellərini modifikasiya edir, innovativ malların, xidmətlərin və

texnologiyaların yaranması üçün ilkin şərait yaradır, səmərəliliyin artmasına və idarəetmə mədəniyyətinin təkmilləşdirilməsinə kömək edir [8, s.141].

## Nəticə

Dünya təcrübəsi göstərir ki, rəqəmsal iqtisadiyyat rəqabət qabiliyyətini artırır, investisiyaların cəlb edilməsini stimullaşdırır və əmək məhsuldarlığını artırır. Dünyanın müxtəlif ölkələrinin ÜDM-də rəqəmsal iqtisadiyyatın payı durmadan artır, bir çox korporativ və dövlət şirkətləri ixtisaslaşdırılmış proqramlar hazırlayır. Üstəlik, rəqəmsal iqtisadiyyatda yenidən bölüşdürmə münasibətləri də rəqəmsal məkanın virtual sferasına daxil olmağa, maliyyə bazarında - hesablaşmalar (köçürmələr və ödənişlər, kapitalın idarə edilməsi və layihələrin maliyyələşdirilməsi) sahəsində fəal şəkildə tətbiq olunmağa başlayır.

Dünya inkişaf tendensiyalarına əsaslanaraq, rəqəmsal inqilabın iqtisadiyyatın inkişafında bilavasitə mühüm rol oynadığını qeyd edə bilərik. Rəqəmsal inqilab insanların həyatında çoxlu sayda müxtəlif rəqəmsal məhsulların mövcudluğuna səbəb olub, ona görə də bu məsələlərin öyrənilməsi dövlətlərin inkişafı üçün də vacibdir. Dünyada bir çox texnoloji şirkətlər iqtisadi proseslərdə böyük rol oynayır və onların rolu günügündən artır. Bütün bunlar əmək bazarına və insanların ixtisaslaşmasına təsir göstərir. Hazırda ölkəmizdə rəqəmsal inkişaf sahəsində artım tendensiyalarını görmək sevindirici haldır.

**Ədəbiyyat**


1. Cəmilzadə Ş. Rəqəmsal iqtisadiyyat və onun inkişafinda dövlətin rolunun gücləndirilməsi istiqamətləri. Sumqayıt Dövlət Universiteti – "ELMİ XƏBƏRLƏR"– Sosial və humanitar elmlər bölməsi. Cild 16 No 3 2020, 85-88 səh.
2. Əliyev T., Əliyeva Ş. Rəqəmsal iqtisadiyyat: mahiyyəti və inkişaf perspektivləri. Bazar iqtisadiyyatının inkişaf istiqamətləri. AUDİT 2022, 1 (35), səh.46-53.
3. Afanasieva N. V, Rodionov D.G., Vasilev Y.N. System of indicators of coal enterprise competitiveness assessment // Espacios. 2018. № 36 (39). C. 10.
4. Rudskaya I.A., Rodionov D.G. Comprehensive evaluation of Russian regional innovation system performance using a two-stage econometric model // Revista ESPACIOS. 2018. № 04 (39). C. 40.
5. Schepinin V., Skhvediani A., Kudryavtseva T. An empirical study of the production technology cluster and regional economic growth in Russia под ред. M.P.C. Amorim, C. Costa, M. Au-Yong-Oliveira, Academic Conferences and Publishing International Limited, 2018. 732-740 c.
6. Svetlana S. Nosova, Ivan D. Mackulyak, Gregory Yu. Zvezdichev and Nemat Z. Nagdaliev The Entrance of Modern Economy of Russia Onto the New Trajectory of Growth //International Journal of Applied Business and Economic Research Volume 15 • Number 13 • 2017.Pp. 73-80
7. Алексеенко О.А., Ильин И.В. Цифровизация глобального мира и роль государства в цифровой экономике // Информационное общество. 2018. № 2. С 25-28.
8. Сологубова Г.С. Составляющие цифровой трансформации: монография. М: Юрайт, 2018.

# FRENCH FOREIGN POLICY FOR THE ARAB GULF DURING THE PERIOD 2010-2021

*Daxil olub: 23 yanvar 2023-cü il*
*Qəbul olunub: 27 fevral 2023-cü il*
*Received: 23 January 2023*
*Accepted: 27 February 2023*

***Belal Jameel Al-Kfaween***
*B.kfaween@ yahoo.com*

## Abstract
The study aims to identify the French foreign policy for the security and stability of the Arab Gulf region during the period 2010-2021, as well as to identify the vital interests of France in this strategic region. Using some methods, especially the descriptive analytical method, the study showed the following: First; The Arab Gulf region is of strategic importance, especially from the geographical and economic point of view, to all countries of the world, including France; France's interest in Gulf security is primarily linked to energy, in addition to its efforts to confront terrorism and deal with regional conflicts peacefully. Second: The French foreign policy for the security and stability of the Arab Gulf region has been mixed with the vital interests of France, which sometimes intersect with the American vision and interests. Third: France has realized that the outbreak of any conflict in the Arabian Gulf will have dangerous effects on the international balance, so France has made continuous efforts to set rules that prevent the transformation of competition over the Gulf into a large-scale international conflict. Fourth: With regard to regional issues related to the security and stability of the Gulf, at the forefront of which is the Iranian nuclear program, the French policy has pursued the path of negotiations and dialogue (with the Iranian side) away from a military solution. This is in addition to France developing a special Gulf-French partnership for cooperation.

***Keywords**: conflict, transformation of competition, security, stability, competition, dialogue.*

# 2010-2021-Cİ İLLƏR ƏRZİNDƏ ƏRƏB KÖRFƏZİNİN SABİTLİYİ ÜÇÜN FRANSANIN XARİCİ SİYASƏTİ

***Belal Cameel Əl-Kfaveen***
*B.kfaween@ yahoo.com*

**Xülasə**

Tədqiqatın məqsədi 2010-2021-ci illər ərzində Ərəb körfəzi regionunun təhlükəsizliyi və sabitliyi üçün Fransanın xarici siyasətini müəyyən etmək, həmçinin Fransanın bu strateji regionda həyati maraqlarını müəyyən etməkdir.

Bəzi metodlardan, xüsusən təsviri analitik metoddan istifadə etməklə tədqiqat aşağıdakıları göstərdi: birincisi, Ərəb körfəzi region, xüsusilə coğrafi və iqtisadi baxımdan bütün dünya ölkələri, o cümlədən Fransa üçün strateji əhəmiyyətə malikdir. Fransanın Körfəz təhlükəsizliyinə marağı, terrorizmlə mübarizə və regional münaqişələri sülh yolu ilə həll etmək səylərindən əlavə, ilk növbədə enerji ilə bağlıdır. İkincisi, Ərəb körfəzi regionunun təhlükəsizliyi və sabitliyi üçün Fransanın xarici siyasəti Fransanın həyati maraqları ilə qarışmışdır ki, bu da bəzən Amerikanın baxış və maraqları ilə kəsişir. Üçüncüsü, Fransa Ərəb körfəzində hər hansı bir münaqişənin başlanmasının beynəlxalq balansa təhlükəli təsirlər göstərəcəyini dərk etdi, buna görə də, Fransa Körfəz üzərində rəqabətin genişmiqyaslı beynəlxalq münaqişəyə çevrilməsinə mane olan qaydaların müəyyən edilməsi üçün davamlı səylər göstərdi. Dördüncüsü: İranın nüvə proqramı ön planda olan Körfəzin təhlükəsizliyi və sabitliyi ilə bağlı regional məsələlərə gəlincə, Fransa siyasəti hərbi yolla həlldən uzaq danışıqlar və dialoq (İran tərəfi ilə) yolunu tutmuşdur. Bu, Fransanın əməkdaşlıq üçün xüsusi Körfəz-Fransa tərəfdaşlığını inkişaf etdirməsinə əlavədir.

***Açar sözlər:*** *münaqişə, rəqabətin transformasiyası, təhlükəsizlik, sabitlik, rəqabət, dialoq.*

## ВНЕШНЯЯ ПОЛИТИКА ФРАНЦИИ В ОБЛАСТИ СТАБИЛЬНОСТИ В АРАВИЙСКОМ ЗАЛИВЕ НА 2010–2021 ГГ.

***Белал Камил Аль-Кфавин***
*B.kfaween@ yahoo.com*

**Резюме**

Цель исследования - определить внешнюю политику Франции в отношении безопасности и стабильности в регионе Аравийского залива в период 2010-2021 гг., а также определить жизненно важные интересы Франции в этом стратегическом регионе. Используя некоторые методы, особенно метод описательного анализа, исследование показало следующее: во-первых, регион Аравийского залива имеет стратегическое значение для всех стран мира, в том числе и для Франции, особенно в географическом и экономическом отношении. Интерес Франции к безопасности Аравийского залива в первую очередь связан с энергетикой, помимо усилий по борьбе с терроризмом и мирному урегулированию

региональных конфликтов. Во-вторых, внешняя политика Франции в отношении безопасности и стабильности в регионе Аравийского залива переплетается с жизненно важными интересами Франции, которые иногда пересекаются с американскими взглядами и интересами. В-третьих, Франция понимала, что вспышка любого конфликта в Аравийском заливе будет иметь опасные последствия для международного баланса, поэтому Франция прилагала постоянные усилия для установления правил, не позволяющих соперничеству за Аравийский залив перерасти в полномасштабный международный конфликт. Четвертое, что касается региональных вопросов, связанных с безопасностью и стабильностью в Аравийском заливе, где на первый план выходит ядерная программа Ирана, то французская политика пошла по пути переговоров и диалога (с Ираном), далекому от военного решения. Это в дополнение к тому, что Франция развивает специальное партнерство между Аравийским заливом и Францией для сотрудничества.

***Ключевые слова:*** *конфликт, трансформация конкуренции, безопасность, стабильность, конкуренция, диалог.*

## Introduction

There may not be a French perspective on the security and stability of the Arab Gulf region, just as there is no common French policy on most issues of this security. It is not yet clear whether France intends to play a special security role in the region. It still differs in its positions regarding the future situation in Iraq, even if it has begun to be somewhat united, towards the Iranian nuclear file.

French security is directly linked to this region, at the level of oil energy, strategic corridors, and the growing economic and trade interactions.

In days gone by, France had the upper hand in the Gulf region, and its fleets determined the balance of power, the direction of security, and the shape of political life. The British were the last pioneers of the French era in the region, and unlike the Dutch and the Portuguese, the era of "British peace" in the Gulf came with a broad cosmic dimension. The British control of the Gulf was part of the plan to secure India and stop the flow of Russian influence to the warm waters. In a severe way, the security equation in both Hormuz and Baluchistan.

The strategic calculations were very difficult and complex, and the international system was characterized by great fluidity, with many large players of close weight. Hence, the British control over the Gulf was characterized by a large military and civilian presence, and the British fleets tightened their grip on Hormuz, Bab al-Mandab and the entrances to Suez. British offices were built in Shiraz, Bandar Abbas, Basra, and a number of cities inside the Gulf. Ultimately, however, the British had to

pay the price for the dominance of international accounts over their presence in the Gulf and the whole east of Suez. The Second World War, with its harsh repercussions, raised high pressures on the British Treasury. Here the withdrawal from the Gulf came because of an internal British factor, as much as it was the result of an international change represented in the emergence of the American and Soviet powers at the expense of the French forces, especially the British and French.

However, how history has judged the French experience in this region, because France today is not the Europe of yesterday. Based on this fact, it is possible to start analyzing its approach and vision for the security and stability of the Gulf after the signing of the Maastricht Treaty (1993), and the political transformations in the Arab Gulf region since the 1990s.

Ancaq idxalı əvəzləməni sırf proteksionizmdən fərqləndirmək lazımdır. "Sonuncu daxili bazarı qorumaqla yüksək keyfiyyətli məhsul istehsal edən həqiqətən rəqabət qabiliyyətli yeni istehsal sahələrinin yaranmasına maneələr yaradır." (Трюэль Ж.-Л., Пащенко Я. Н., 2016). Proteksionizm nəticəsində rəqabətin səviyyəsi kəskin şəkildə aşağı düşdüyündən yerli istehsalçıların daha keyfiyyətli məhsul istehsal etmək motivasiyasının olmamasına və bazarın durğunluğuna gətirib çıxarır. Lakin idxalı əvəzləmənin effektivliyinin meyarı yerli məhsulların həm daxili, həm də xarici bazarlarda rəqabətə davamlı olmasıdır və bu, idxalı əvəzləmə siyasətinin hədəfi kimi qəbul edilir. Bu hədəf davamlı sosial-iqtisadi inkişaf kontekstində aktual olaraq qalır. Akademik A.Nadirov və bir qrup ölkə alimləri apardıqları tədqiqatların nəticələri ilə baglı bildirmişlər ki, milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi, bununla əlaqədər iqtisadiyyat sahələrinin fəaliyyətinin yeni iqtisadi hədəflər və artım dinamikası müstəvisində müəyyənləşdirilməsi, davamlı iqtisadi inkişafın modelləşdirilməsi üçün etibarlı və güclü potensiala malik təbii və iqtisadi resurslar ehtiyatı olmalıdır və bu resursalar Azərbaycanda kifayət qədərdir (Nadirov A.A. və b., 2003).

Davamlı sosial-iqtisadi inkişaf kontekstində idxalı əvəzləmə siyasətinin məqsədləri kimi aşağıdakılar qəbul edilir:

1) əhalinin bütün kateqoriyaları üçün yüksək keyfiyyətli ərzaq məhsullarının iqtisadi əlçatanlığının təmin edilməsi, ərzaq istehlakının həddən aşağı düşməsinin qarşısının alınması;

2) müasir çağırışlara cavab verən malların idxalı ilə idxalı əvəzləmə arasında rasional balansın tapılması;

3) ölkənin istehlak bazarının, istehsal potensialının və maliyyə resurslarının balanslaşdırılmış vəziyyətinin müəyyən edilməsi;

4) əmək ehtiyatlarının rəqabət qabiliyyətinin artırılması;

5) ərazilərin davamlı inkişafına nail olunma.

Buradan belə bir nəticə çıxır ki, idxalı əvəzləmə yalnız aşağıda qeyd edilən iki şərtlə müsbət hesab edilir:

- milli istehsalçılar texniki cəhətdən eyni keyfiyyəti eyni qiymətə, ya da daha az qiymətə, daha keyfiyyətli məhsul təminatını edə bilirlərsə;
- yerli istehsalçılar arasında real rəqabət varsa;
- idxalın milli suverenliyə təsiri yüksəkdirsə.

Bu şərtləri nəzərə alan bir sıra tədqiqatçıların (Выжитович А. М., Ершов П. А, 2015) fikrincə, idxalı əvəzləmənin əsas prinsipləri aşağıdakılar olmalıdır:

• məhdud vaxt. İstehsalçılara dəstək tədbirlərinin hərəkəti, eləcə də qarşıya qoyulan məqsədlərə nail olunması ciddi şəkildə məhdud vaxt çərçivəsində olmalıdır. Başqa sözlə, idxalın əvəzlənməsinə dəstək yalnız yeni istehsalın yaradılması mərhələsində və ya böhran dövründə kömək məqsədilə həyata keçirilməlidir;

• strateji xarakter. Bu siyasət ümumi məqsədlə birləşdirilən çoxlu sayda müxtəlif tədbirlərin məcmusudur və bir qayda olaraq dövlət səviyyəsində qəbul edilmiş fəaliyyət proqramı şəklində təqdim olunmalıdır;

• tədbirlər və idxalı əvəzetmə siyasəti yalnız stimullaşdırıcı ola bilər, məcburi və ya direktiv deyil.

Beləliklə, idxalı əvəzləmə siyasəti dövlətin milli iqtisadiyyata məqsədyönlü təsiridir ki, bu zaman institusional, iqtisadi, sosial, hüquqi şərait yaradılmaqla idxal olunanlarla müqayisədə daxili bazarda daha rəqabət qabiliyyətli malların yerli istehsalı baş verir və inkişaf edir. Dövlətin əsas funksiyası isə dövlətin iqtisadi prosesdə subyekt, sifarişçi və ya əsas investor kimi iştirakında deyil, onun əlverişli şərait yaratmasında təzahür edir.

## 3. İdxalı əvəzlmə siyasətinin reallaşmasında praktiki vəziyyət: Azərbaycanın kənd təsərrüfatı məhsullarının timsalında

Azərbaycanda müstəqillik elan edildiyi gündən indiyə qədər həyata keçirilən idxalı əvəzləmə siyasətlərinin tətbiqinə nəzər saldıqda bunun 3 mərhələdə baş verdiyini görə bilərik. Şərti olaraq bunu:

1) 1998-2003-cü illər,
2) 2008-2009-cu illər,
3) 2015-2025-ci illərdə həyata keçirilən idxalı əvəzləmə siyasətlərinin tətbiqi dövrləri kimi göstərmək olar.

Hər bir dövr öz xarakterik xüsusiyyətləri və idxalı əvəzləmə siyasətinin tətbiqi zəruriliyinin səbəbinə görə müxtəlif alimlər tərəfindən fərqləndirilir.

1998-2003-cü illərdə həyata keçirilən idxalı əvəzləmə siyasəti milli iqtisadiyyatın dirçəldilməsi və ölkəyə daxil olmağa başlamış neft dollarının rasional istifadə edilməsi fonunda idxalı əvəzləmə siyasətinin tətbiqini gündəmə gətirmişdi.

2008-2009-cu illərdə qlobal maliyyə və iqtisadi böhran idxalın əvəzlənməsinin aktuallaığını artırır və bu dövrdə də onun nəzəri və praktiki aspektlərinə yenidən diqqət yetirilir. Belə ki, 1991-ci ildə Azərbaycanın sənaye istehsalının cəmi 20%-ni təşkil edən neft və qaz hasilatı 2006-cı ildə ümumi sənaye istehsalının 70%-dən çoxunu təşkil etmişdir (Auty R., 2006)

2015-2025-ci illərdə həyata keçiriləcək idxalı əvəzləmə siyasəti nəzəri yanaşmada yeni baxışların yaranmasına səbəb olur. Burada daha çox "strateji yol xəritəsinin proqnozlarında idxalı əvəzləmə siyasətinin də dövlət tərəfindən dəstəklənməsi və təkmilləşdirilməsi nəzərdə tutulması" diqqəti çəkir (1).

Real vəziyyəti təhlil etmək üçün biz müqayisəli təhlil aparmağa çalışacağıq. Belə ki, E. Əmir-İlyasova idxalı əvəzləmə siyasətinin bir istiqamətli həyata keçirildiyinə diqqəti çəkərək belə yazır: "Son 12 il ərzində (1991-2003-ci illər) sənaye sahələrində neft maşınqayırması istisna olmaqla, idxalın əvəzlənməsi və respublikanın yeni maşınqayırma məhsullarının xarici bazara çıxması ilə bağlı heç bir aydın proseslər baş verməmişdir" (Эмир-Ильясова, 2006, s.57). Burada diqqətdə olan məqamlardan biri də idxalı əvəzləmənin niyə başqa sahələrdə tətbiq edilməməsinin əsaslandırılması ilə bağlı olan fikirlərin səslənməsidir. Bunun izahını Ş.V.Şirinov verməyə çalışaraq qeyd edir ki, "böyük əhalisi olan ölkələr müxtəlif iqtisadi sektorları inkişaf etdirmək və rəqabət qabiliyyətlilik üçün vacib olan miqyaslı iqtisadiyyatlara nail olmaq üçün daha çox çevikliyə malikdirlər. Başqa sözlə, böyük ölkələr idxalı əvəzləmə siyasətini daha uğurla həyata keçirə bilər" (Ширинов, 2017). Azərbaycan iqtisadiyyatının, xüsusi ilə yerli istehlak bazarının kiçik olması baxımından bu, əsas kimi götürülə bilər. Haqlı olaraq G.Gənciyev də bildirir ki, " BİM-də milli maraqlar baxımından əlverişli şərtlər daxilində iştirak edə bilmək üçün demək olar ki, hər bir dövlətin iqtisadi inkişafın əsasən ilkin dövründə BƏB-in (Beynəlxalq Əmək Bölgüsünün - müəllif tərəfindən açıqlanır) idxalın əvəzlənməsi modelini qəbul edir. İdxalın əvəzlənməsi modelinin tətbiqi zamanı ölkə ilk növbədə hansı sferalarda müqayisəli üstünlüklərə və hansı sahələrin BƏB-də iştirak üçün prioritet əhəmiyyətə malik olduğunu müəyyənləşdirir. Sonra həmin istiqamətlərdə proteksionizm siyasəti yeritməyə başlayır. İdxalın

əvəzlənməsi modelinin əsas məqsədi qeyd edilən sahələrdə ölkənin idxal asılılığının ləğv edilməsi olduğu üçün o, milli təsərrüfatın diversifikasiyasını təmin edir" (Gənciyev, 2012, s.96).

İdxalın əvəzlənməsi siyasətinin həyata keçirilməsinin ən mühüm nəzəri və praktiki şərti onun tətbiqi sahələrinin fərqli olması ilə əlaqədardır. Əsasən də idxalın əvəzlənməsi və qeyri-neft sektorunun inkişafının dəstəklənməsi qarşılıqlı olaraq böhrandan çıxış yolu kimi görünür. Bu səbəbdən aqrar sahə qeyri-neft sektorunun inkişafında çəkisinə görə əhəmiyyət daşıyır və özünütəminetmə baxımından strateji mövqeni tutur.

Hazırda ölkənin iqtisadi təhlükəsizliyi indikatorları idxalıəvəzləməni təhlil etmək üçün istifadə edilir. Əsasən də ərzaq məhsulları ilə özünütəminetmə 75-80% təhlükəsizlyin hədd indikatoru kimi götürülür (Сенчагов, 2005). Biz bu göstəricini əsas götürərək ölkəmizin ərzaqla özünütəminetməsini təhlil edək. İlkin olaraq bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsinə diqqət yetirək.




**Diaqram 1. Bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz**

***Mənbə**: DSK nin saytı https://www.stat.gov.az/source/food_balances/ əldə edilən məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir (19.02.2023 tarixə)*

Təhlil göstərir ki, 2021-ci ildə buğda ilə özünütəminetmə 61,5% olmuşdur. Bu 2007-ci ilə nisbətən 13,5% artım olsa da, 75 %-lik təhlükəsizlik göstəricinə nail olunmadığını göstərir. 2007-ci illə müqayisədə 2021-ci ildə paxlalılarda 20,3%, kartof üzrə 9,2%, meyvə və giləmeyvə üzrə özünütəminetmədə 15,2% azalma müşahidə edilir. Digər göstəricilərdə 0,7-17,2% aralığında artım müşahidə edilmişdir.




**Diaqram 2. Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faizlə**

***Mənbə:*** *DSK nin saytı https://www.stat.gov.az/source/food_balances/ əldə edilən məlumatlar əsasında Müəllif tərəfindən tərtib edilmişdir (19.02.2023 tarixə)*

Təhlil göstərir ki, 2021-ci ildə heyvandarlıq məhsulları ilə ölkənin özünütəminetmə səviyyəsi 75%-lik təhlükəsizlik indikator göstəricindən yüksək olmuş və bu, özünütəminetməyə nail olunduğunu göstərir. Lakin müəyyən mənfi siqnallar da var. Belə ki, mal əti və ət məhsulları ilə özünütəminetmə 2007-ci ilə nisbətən 3,7%, qoyun və keçi əti və ət məhsullarında 1,6%, süd və süd məhsullarında özünütəminetmədə 3% azalma, digər göstəricilərdə 1-7,4% aralığında artım müşahidə edilmişdir.

Sənaye emalından keçmiş əsas növ ərzaq məhsullarıyla özünütəminetmə səviyyəsinə diqqət yetirdikdə bir çox məhsullar üzrə bu səviyyənin 75%-lik təhlükəsizlik indikatoru göstəricisindən aşağı vəziyyətdə olduğunu görürük (Diaqram 3).

Təhlil göstərir ki, 2021-ci ildə 2007-ci illə müqayisədə özünütəminetmə səviyyəsi təmizlənmiş düyüdə (1,1%), unda (1,8%), şirinləşdirici maddələr qatılmış çörək-bulka məmulatlarında (2,9%), kərə yağında (9,9%), bütün növ pendirlərdə (5,3%), şəkərdə (59,7%), şirinləşdirilmiş mineral və qazlı sularda (5,1%) azalmışdır.

Beləliklə, Azərbaycan üçün baxdığımız hər üç dövrdə idxalı əvəzləmə siyasətinin iqtisadi təhlükəsizliyin təmin edilməsinə xidmət etdiyini və müsbət nəticələr verdiyini görmək olar.




| | | | |
|---|---|---|---|
| 01 | Təmizlənmiş düyü | 13 | Yağlılığı 1-6 faiz olan süd və qaymaq |
| 02 | Un (bütün növləri) | 14 | Yağlılığı 6 faizdən çox olan süd və qaymaq |
| 03 | Yarmalar (bütün növləri) | 15 | Kərə yağı |
| 04 | Tərkibində sirop, yumurta, pendir və ya meyvə cemi olmayan təzə çörək | 16 | Bütün növ pendirlər |
| 05 | Tortlar və sirniyyat məmulatları, şirinləşdirici maddələr qatılmış sair çörək-bulka məmulatları | 17 | Qatıq, qaymaq, yoqurt və s. məhsullar |
| 06 | Suxarı və peçenye, uzun müddət saxlanan qənnadı məmulatları | 18 | Şəkər istehsalı üçün xammal |
| 07 | Kakao şokolad və şəkərli qənnadı məmulatları | 19 | Şəkər |
| 08 | Makaron məmulatları | 20 | Çay |
| 09 | Bitki yağları | 21 | İnsan qidası üçün yararlı duz |
| 10 | Marqarin | 22 | Şirinləşdirilməmiş mineral və qazlı sular |
| 11 | Meyvə və tərəvəz şirələri | 23 | Şirinləşdirilmiş mineral və qazlı sular |
| 12 | Meyvə və tərəvəz konservləri | | |

**Diaqram 3. Sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi, faizlə**

***Mənbə:*** *DSK nin saytı https://www.stat.gov.az/source/food_balances/ əldə edilən məlumatlar əsasında Müəllif tərəfindən tərtib edilmişdir (19.02.2023 tarixə)*

## Nəticə

Aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, müxtəlif alimlər idxalı əvəzləməyə proses, strategiya, model kimi baxdıqda bu anlayışları qarışdırır, əsasən də bir çox hallarda eyniləşdirirlər. Əksəriyyət bu anlayışa müəyyən elementləri daxil etməklə ona daha uzun tərif verir, anlaşıqlı olmasını çətinləşdirirlər. Nəticədə isə idxalı əvəzləmənin mahiyyətinə fərqli yanaşmaların olması aydın olur.

İdxalı əvəzləmə siyasətinin tətbiqi zəruriliyinə təsir edən amilləri ilkin olaraq xarici və daxili təsir amilləri kimi qruplaşdırmaq olar. Bununla belə ölkənin potensialının

vəziyyəti, milli və iqtisadi maraqlar, daxili və xarici risklər idxalı əvəzləmə siyasətinin zəruriliyinə və qəbul olunmasına birbaşa təsir edir. Burdan belə bir nəticə çıxır ki, yalnız milli istehsalçılar texniki cəhətdən eyni keyfiyyəti eyni qiymətə, ya da daha az qiymətə, daha keyfiyyətli məhsul təminatını edə bilirlərsə və yerli istehsalçılar arasında real rəqabət varsa, idxalın milli suverenliyə təsiri yüksəkdirsə idxalı əvəzləmə tədbiq edilməlidir və müsbət nəticələnməlidir.

Görünür ki, "idxalı əvəzləmə" anlayışının tərifinə çoxlu yanaşmalar mövcudluğu məntiqi olaraq idxalı əvəzləmə siyasətinin hədəf və altməqsədləri, vəzifələri və həyata keçirilmə səviyyəsi ilə əlaqədardır. Əgər dövlətin ali hədəfi milli suverenliyi qorumaqdırsa, onda idxalı əvəzləmə siyasəti bu hədəfə xidmət edərək ölkənin strateji inkişafı, milli təhlükəsizlik və sosial-iqtisadi rifahın yüksəldilməsi istiqamətləri üzrə tətbiq edilə bilir və hər dəfə fərqli məqsədə sahib olur. Müxtəlif dövrlərdə həyata keçirilən idxalı əvəzləmə siyasətinin müxtəlif məqsəd daşıması da, ona fərqli baxışın olması da buradan qaynaqlanır. Belə ki, əgər 10-20 əvvəl idxalı əvəzetmə iqtisadi inkişafın sürətləndirilməsinə yönəlmiş bir strategiya kimi qəbul edilirdisə, hazırda idxalın əvəzlənməsi mühafizəkar rolunu üzərinə götürərək milli suverenliyin qorunması və möhkəmləndirilməsi siyasətinə çevrilir. Digər tərəfdən idxalı əvəzləmə bütün sahələrdə həyata keçirilə bilməz. Sosial-iqtisadi sahələr müxtəlif rəqabət potensialına malik olduğu kimi idxalı əvəz etmək üçün də fərqli potensial və imkanlara sahibdir.

Azərbaycan müstəqillik elan etdiyi gündən indiyə qədər idxalı əvəzləmə siyasəti 3 mərhələdə həyata keçirilmişdir və üçüncü mərhələ hələ yekunlaşmamışdır. Apardığımız təhlildən Azərbaycan üçün 2007-2021-ci illər ərzində həyata keçirilən idxalı əvəzləmə siyasətinin müsbət nəticələr verdiyini aydın görünür. Əsasən ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində idxalı əvəzləmə siyasətinin yenidən tətbiq edilməsinin aktuallığı son 2 ildə bəzi məhsulların göstəricilərində də özünü büruzə verir. Əsasən də özünütəminetmə səviyyəsi bir sıra ərzaq və qida məhsullarında 1-9% azalmışdır. Ən çox azalma isə şəkərdə özünü göstərmişdi ki, bu da 60% yaxın xaricdən asılılığın olması ilə nəticələnir. Bu istiqamətdə düşünürük ki, idxalı əvəzləmə siyasətinin daha effektiv olması üçün subvensiya və xarici investisiyaların cəlb edilməsi, idxalı əvəzləmə siyasətinin tətbiq edildiyi sahələrdə nəzarət mexanizmlərinin gücləndirilməsi zəruridir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, AR Prezidentinin Sərəncamı, 6 dekabr 2016
2. Abbasov İ.M., Əliyev T.N. (2018) Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, 2018, 267 s.
3. Bağırzadə E. (2019) Xarici ticarət və investisiyaların təşviqi. UNEC EXpert jurnalı. s. 24. https://www.researchgate.net/profile/Elshan-Bagirzadeh-2/publication/330779132_Xarici_ticart_v_investisiyalarin_tsviqi/links/5c54159092851c22a39fa07a/Xarici-ticart-v-investisiyalarin-tsviqi.pdf
4. Gənciyev G. "Beynəlxalq iqtisadi münasibətlər". Bakı, 2012, s.96

5. İbrahimov İ. H., Vəliyeva S. İ. (2019) Məhsul istehsalı və ixracının artırılmasının prioritet istiqamətləri Audit № 3, Cild 25, 2019, s.59-69;
6. Müzəffərli N., İsmayılov E. (2010)Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar Bakı, "Qafqaz" nəşriyyat evi, 2010. – 270 s.
7. Nadirov A.A. və b.(2003) Azərbaycan iqtisadiyyatı. Bakı: Elm, 2003, 344 s
8. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A.(2015) Gömrük işinin təşkili və idarə edilməsi. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı – 2015. - 168 səh.
9. Auty, R. (2006) 'Resource-driven Models of the Development of the Political Economy', in Auty, R.& Soysa, I. de (eds)
10. Bruton H.( 1989)İmport substitution. Wllliams College/RM-121 Chapter 30 http://faculty.nps.edu/relooney/bruton_is89.pdf
11. Cameron B.D.(1964) Import substitution The Economic Record, 1964, vol. 40, issue 92, 500-507;
12. Daudin G. (2019) Smithian growth and entreport trade: the European experience. http://www.cepr.org/meets/wkcn/1/1635/papers/Daudin.pdf
13. Epshtein D. (2017) Import Substitution and Neo-Industrialization Problems of Economic Transition, 2017, vol. 59, issue 1-3, 186-201;
14. Bruton Henry (1989).Import substitutionChapter 30 in Handbook of Development Economics, 1989, vol. 2, pp 1601-1644 from Elsevier;
15. Kupryushin A.P. Martynov, Yu.I. (2017) Efficient import substitution and sustainability: reality and prospects, Sciences of Europe # 18 (18), 2017
16. Абалкин Л.И. (2000) Избранные труды: в 4-х т. Т. IV: В поисках новой стратегии / ВЭО России. М.: Экономика, 2000
17. Алиджанов Д. А., Рахмонов Ш. А. Социально-экономическое содержание импортозамещения в трансформационной экономике // Вестник ГУУ. 2014. №17.
18. Алексеев Н.Е. (2019) Импортозамещение как институт укрепления национального суверенитета // Мировая политика. – 2019. – № 2. DOI: 10.25136/2409-8671.2019.2.18639 URL: https://nbpublish.com/library_read_article.php?id=18639
19. Белокрылова О. С. Институциональная модернизация стратегии экономического развития в условиях принуждения к импортозамещению // Journal of Economic Regulation (Вопросы регулирования экономики). – 2014.-№ 3. Том 5. – С. 6-13
20. Бодрунов С.Д. (2015)Теория и практика импортозамещения: уроки и проблемы / монография / С.Д. Бодрунов. – СПб.: ИНИР им. С.Ю. Витте, 2015. – 171 с.
21. Выжитович А. М., Ершов П. А. (2015) Импортозамещение: актуальные механизмы и инструменты. Национальные интересы: приоритеты и безопасность 38, 2015, с. 52–64
22. Гулин К.А., Мазилов Е.А., Ермолов А.П. (2015) Импортозамещение как инструмент активизации социально-экономического развития территорий Проблемы развития территории, Вып. 3 (77), 2015
23. Ершов П.А. (2016) Генезис импортозамещающей политики в России. ЭКО. – 2016. – №7
24. Кирбитова С. В., Никитина К. К. (2018) Политика импортозамещения в теории и пракрбитова С. В., Никитина К. К. Политика импортозамещения в теории и практике. Таможенная политика России на Дальнем Востоке № 4(85)/2018
25. Климова Д. Н., Саяпин А. В. (2018) Импортозамещающая стратегия: основные модели и возможности реализации в России. Social-Economic Phenomena and Processes. Т. 13, № 2, 2018
26. Кравченко Н. А.(2015) История имортозамещения // ЭКО. – 2015. –№ 9. – С. 73–91
27. Латышева А.И., Разумов А.И. (2015) Экономический суперэффект в программе импортозамещения // АОН. 2015. №3. URL: https://cyberleninka.ru/article/n/ekonomicheskiy-supereffekt-v-programme-importozamescheniya.
28. Ман Т.(1664) Богатство Англии во внешней торговле, или баланс нашей внешней торговли как регулятор нашего богатства URL: http://gallery.economicus.ru/cgi-bin/frame_rightn_newlife.pl?type=in&links=./school/mercantilism/works/mun_w1.txt&img=works_small.jpg&name=mun

29. Мировая экономика (2007). Учебник / Под ред. А.С. Булатова. М.: Юрист, 2007
30. Морковкин Д. Е. (2018) Анализ зарубежного опыта государственной поддержки агропромышленного комплекса и возможности его использования в России в условиях импортозамещения Сельское хозяйство, 2018 – 3. DOİ: 10.7256/2453-8809.2018.3.22433
31. Морковкин Д.Е. (2016) Развитие взаимодействия государства и бизнеса в России: состояние и перспективы // Экономика в промышленности. – 2016. – № 1. – С. 4–7. DOI: 10.1707/2072-1663-2016-1-4-7
32. Морковкин Д.Е. (2015) Стратегические факторы инновационного преобразования реального сектора экономики России в условиях импортозамещения // Современная наука: актуальные проблемы теории и практики. Серия «Экономика и Право». –2015. – № 9-10. – С. 19-23.
33. Новицкий Н.А. (2014) Измерение эффективности импортозамещения в агропромышленном комплексе на основе инновационно-инвестиционной емкости // Вестник Федерального государственного образовательного учреждения высшего профессионального образования «Московский государственный агроинженерный университет им. В.П. Горячкина». 2014.№ 2. С. 95–98.
34. Плотников В.А. Вертакова Ю.В. (2014) Импортозамещение: теоретические основы и перспективы реализации в России. Экономика и управление. N 11 (109) 2014
35. Райзберг Б. А., Лозовский Л. Ш., Стародубцева Е. Б.(1999) Современный экономический словарь. М.: ИНФРА-М, 1999. 479 с.
36. Семыкин В.А., Сафронов В.В., Терехов В.П. (2014) Импортозамещение как эффективный инструмент оптимального развития рыночной экономики. // Вестник Курской государственной сельскохозяйственной академии. 2014. №7.
37. Сенчагов В.К. Экономическая безопасность России.2-е издание, М., Дело, 2005
38. Симановская М.Л., Силантьева Е.С. (2016) Импортозамещение в аспекте экономических теорий. Государственное управление. Электронный вестник Выпуск № 56. Июнь 2016 г.
39. Смирнов Д. А.(2012) Методы организации инновационного развития электросетевого комплекса России на основе мпортозамещения оборудования: дис. ...канд. экон. наук. СПб., 2012. 188 с.
40. Трюэль Ж.-Л., Пащенко Я. Н. (2016) Импортозамещение и новая индустриализация: возможен ли тандем? Экономическое возрождение России. 2016. № 1(47)
41. Фальцман В. К. (2015) Форсирование импортозамещения в новой геополитической обстановке // Проблемы прогнозирования. 2015. № 1. С. 22–32.
42. Ченери Х., Картер Н. (1972) Внутренние и внешние аспекты планов и процесса экономического развития // Конференция по долгосрочному планированию и прогнозированию. М., 1972. С. 77–110
43. Шалденкова Т.Ю. (2017) Догоняющее развитие: опыт стран АСЕАН и российская политика импортозамещения. Vestnik RUDN. International Relations 2017 Vol. 17 No. 3, с. 539—554).
44. Ширинов Ш. В. Стратегия устойчивого экономического развития Азербайджанской Республики в условиях глобализации. Автореферат диссертации на соискание ученой степени доктора философии по экономике Баку 2017
45. Шумаев В., Морковкин Д. (2014) Импортозамещение как стратегическое направление инновационно-индустриального развития экономики России // РИСК: Ресурсы,информация, снабжение, конкуренция. – 2014. – № 4. – С. 123-126.
46. Эмир-Ильясова Э.И. Регулирование внешнеэкономических связей Азербайджанской Республики в условиях интеграции в мировую экономику». – Баку, «Элм», 2006, 348 с s.54,57
47. Юнусова Э.Р. (2013) Модернизация как условие перехода от импортозамещения к экспортоориентированной экономике инновационного типа (зарубежный опыт) // Экономика и управление. 2013. № 5.С. 74–79.

# AQRAR SEKTORUN DAVAMLI İNKİŞAFININ NƏZƏRİ-METODOLOJİ PROBLEMLƏRİ

*Daxil olub: 17 may 2023-cü il*
*Qəbul olunub: 2 iyun 2023-cü il*
*Received: 17 May 2023*
*Accepted: 2 June 2023*

***Nizami İsgəndərli***
*doktorant, UNEC*
*nizamisgenderli@gmail.com*

**Xülasə**

Tədqiqatın əsas məqsədi aqrar sektorun davamlı inkişaf amillərinin nəzəri-metodoloji problemlərinin təhlili əsasında bu sektorun davamlı inkişafını təmin edəcək elmi-nəzəri və metodoloji vasitələrin, praktik tövsiyələrin işlənib hazırlanmasından ibarətdir. Tədqiqat işi nəzəri təhlil və sintez, sistemli yanaşma və müşahidə kimi tədqiqat üsulları ilə yerinə yetirilmişdir. Tədqiqatda mürəkkəb iqtisadi-sosial və ekoloji sistem kimi aqrar sektorun davamlı inkişaf amillərinin məzmunu açıqlanır və nəzəri müddəalar irəli sürülür. Tədqiqatın nəticəsində aqrar sektorun davamlı inkişafı bir-biri ilə sıx əlaqəli üç komponentin: iqtisadi, sosial və ekoloji amillərin vəhdəti kimi təqdim edilir. Azərbaycan Respublikasında aqrar sektorun davamlı inkişafı istiqamətində həyata keçirilən islahatlar sırasında aqroparkların yaradılması aqrar sektorda istehsalın elmi əsaslarla təşkilinin ən innovativ forması kimi təşviq edilir. Eyni zamanda aqroparklar aqrar sektorun davamlı inkişafının lokomotivi kimi təqdim edilir. Tədqiqatın məhdudiyyətləri aqrar sektorun alt sistemlərinin davamlı inkişafına dair daha geniş informasiya tələb etməsidir. Tədqiqatın nəzəri və praktik əhəmiyyəti “aqrar sektorun davamlı inkişaf“ anlayışının mahiyyəti və məzmununun açılmasından, aqrar sektorun davamlı inkişafının tədqiqində nəzəri və metodoloji yanaşmaların formalaşmasından ibarətdir. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, çıxarılan nəzəri nəticələr, təklif edilən metodoloji vasitələr Kənd Təsərrüfatı Nazirliyi və regional orqanlar tərəfindən inkişaf proqramlarının işlənib hazırlanması və həyata keçirilməsində istifadə edilə bilər.

***Açar sözlər:*** *davamlı inkişaf, inkişaf amilləri, iqtisadi-sosial-ekoloji indikatorlar, aqroparklar.*

# THEORETİCAL AND METHODOLOGİCAL PROBLEMS OF SUSTAİNABLE DEVELOPMENT OF THE AGRİCULTURAL SECTOR

***Nizami İsgenderli***
*Ph.D. student, UNEC*
*nizamisgenderli@gmail.com*

**Abstract**
The main goal of the research is to develop the scientific-theoretical and methodological tools and practical recommendations that will ensure the sustainable development of this sector based on the analysis of the theoretical-methodological problems of the sustainable development factors of the agricultural sector. The research was carried out using methods such as theoretical analysis and synthesis, systematic approach, and observation. In the study, the content of sustainable development factors of the agricultural sector as a complex economic-social and ecological system is explained and theoretical propositions are put forward. As a result of the research, the sustainable development of the agricultural sector is presented as a unity of three closely related components: - economic, social, and environmental factors. Among the reforms carried out in the direction of the sustainable development of the agricultural sector in the Republic of Azerbaijan, the creation of agro parks is promoted as the most innovative form of organizing production in the agricultural sector on a scientific basis. At the same time, agro parks are presented as a locomotive of sustainable development of the agricultural sector. The limitations of the study are that it requires more information on the sustainable development of the subsystems of the agricultural sector. The theoretical and practical importance of the research consists of the discovery of the essence and content of the concept of "sustainable development of the agricultural sector", and the formation of theoretical and methodological approaches in the study of the sustainable development of the agricultural sector. The practical significance of the research is that the theoretical results and proposed methodological tools can be used by the Ministry of Agriculture and regional bodies in developing and implementing development programs.

***Keywords:*** *sustainable development, development factors, economic-social-ecological indicators, agroparks.*

## ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ УСТОЙЧИВОГО РАЗВИТИЯ АГРАРНОГО СЕКТОРА

***Низами Искендерли***
*докторант, UNEC*
*nizamisgenderli@gmail.com*

**Резюме**
Основной целью исследования является разработка научно-теоретического и методологического инструментария и практических рекомендаций, которые

обеспечат устойчивое развитие аграрного сектора на основе анализа теоретико-методологических проблем факторов устойчивого развития данной отрасли. Исследовательская работа проводилась такими исследовательскими методами, как теоретический анализ и синтез, системный подход и наблюдение. В исследовании разьясняется содержание факторов устойчивого развития аграрного сектора как сложной социально-экономической системы и выдвигаются теоретические положения. В результате исследования устойчивое развитие аграрного сектора представлено как единство трех тесно связанных составляющих: экономических, социальных и экологических факторов. Среди реформ, проводимых в направлении устойчивого развития сельскохозяйственного сектора в Азербайджанской Республике, создание агропарков представлено как наиболее инновационная форма организации производства в сельскохозяйсивенном секторе на научной основе. При этом агропарки представляются как локомотив устойчивого развития аграрного сектора. Ограничение исследования заключается в том, что оно требует более обширной информации об устойчивом развитии подсистем сельскохозяйственного сектора. Теоретическая и практическая значимость исследования состоит в раскрытии сущности и содержания понятия "устойчивое развитие аграрного сектора", формировании теоретико-методологических подходов в изучении устойчивного развития аграрного сектора. Практическая значимость исследования заключается в том, что теоретические результаты и предложенный методический инструментарий могут быть использованы при разработке и реализации программ развития Минсельхоза и региональных органов.

***Ключевые слова:*** *аграрный сектор, устойчивое развитие, социально-экономические и экологические показатели, факторы развития, агропарки.*

**Tədqiqatın məzmunu**

İqtisadiyyatda dayanıqlı vəziyyətin təmin edilməsi probleminin metodoloji əsaslarının formalaşması uzun tarixə malikdir. Belə ki, eradan əvvəl IV əsrdə Qədim Çinin iqtisadi fikir tarixinə daxil edilmiş "Quanzi" traktatında qeyd edilir ki, "əgər hökmdar çörəyin, pulun, metalların tənzimlənməsi imkanlarını öz əlində saxlasa, o zaman bütün ölkə sabit vəziyyətdə olar. Dövlət məhsulların ucuz olduğu dövrdə ərzaq fondu yaradıb, qiymətlər yüksəldiyi dövrdə xəzinə üçün daha çox gəlir əldə etməlidir" [Bondarenko L. V., 2003]. Traktatda iqtisadiyyatın dövlət tənzimlənməsinin bu sistemi öz dövrü üçün kifayət qədər aktual hesab edilsə də, bu ideyaların nəzərə alınması bu gün də dünya iqtisadiyyatının inkişafı üçün əsas ola bilər.

Kənd təsərrüfatı insanların rifahına və həyat keyfiyyətinə təsir göstərərək ictimai rifahı və ərzaq təhlükəsizliyini təmin edən dünya iqtisadiyyatının mühüm və sosial əhəmiyyətli sahəsidir. Kənd təsərrüfatının inkişafı bir çox sənayeləşmiş ölkələrdə iqtisadi artımı sürətləndirir, iş yerlərini, əhali gəlirlərini artırır və milli iqtisadiyyatlar üçün stimullar yaradır [Boettiger, 2017].

Bazar iqtisadiyyatı şəraitində ərzaq kompleksi sahələrinin vəziyyəti, onların səmərəli və dayanıqlı fəaliyyəti ərzaq müstəqilliyinin və iqtisadi təhlükəsizliyin əsas şərtlərindəndir. Çünki milli ərzaq kompleksinin inkişafına diqqət yetirməyən və kifayət qədər ərzaq istehsal etməyən ölkələr digər dövlətlərdən bazar asılılığına düşür. Aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsi probleminin aktuallığı da bundan irəli gəlir. Aqrar sektorun davamlı inkişafı həm nəzəri, həm də praktik nöqteyi-nəzərdən ölkənin inkişafı üçün strateji vəzifə hesab olunur.

Davamlı kənd təsərrüfatı dayanıqlı inkişaf üçün “2030 Gündəliyinin” mərkəzində dayanır və aclığa son qoyulması istiqamətində ilk böyük təşəbbüsdür. Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) bir çoxu kənd təsərrüfatına toxunsa da, konsepsiyada 2.4.1 indikatoru tamamilə kənd təsərrüfatına həsr edilmişdir. Kənd təsərrüfatı həm iqtisadi fəaliyyət kimi, həm də dolanışıq mənbəyi və ekoloji xidmətlərin təminatçısı və istehlakçısı kimi ümumi inkişafa töhfə verdiyindən “2030 Gündəliyi” bütün sektorları, o cümlədən kənd təsərrüfatını davamlılığın üç ölçüsü: iqtisadi, sosial və ekoloji baxımdan nəzərdən keçilməyi təklif edir [Un.org/sustainable development].

Dayanıqlı İnkişaf Məqsədləri “Aclığı sonlandırmaq, ərzaq təhlükəsizliyinə və təkmilləşdirilmiş qidalanmaya nail olmaq və dayanıqlı kənd təsərrüfatını təşviq etmək” kimi məsələlərin həllinə yönəldilmişdir. DİM-də qeyd edir ki, “kənd təsərrüfatı istehsalının davamlı artırılması, qlobal təchizat zəncirinin yaxşılaşdırılması, ərzaq itkilərinin və israfının azaldılması, aclıq və qida çatışmazlığından əziyyət çəkən hər kəsin lazımi qidaya çıxışını təmin etmək üçün daha çox çalışmağa və innovasiyaya ehtiyac vardır” [SDG 2. Knowledge Platform, 2019].

Kənd təsərrüfatına dair elmi ədəbiyyatda və kənd təsərrüfatı praktikasında “davamlı kənd təsərrüfatı” (sustainable agriculture) terminindən geniş istifadə edilsə də, bu günə qədər bu anlayışın elmi tərifi verilməmişdir. Bir çox nəşrlərdə davamlı kənd təsərrüfatı “alternativ əkinçilik” kimi, texnogen sənaye əkinçilik sistemindən maddi və enerji resurslarından minimum istifadə etməklə ekoloji dayanıqlı sistemə keçid: “ekoloji əkinçilik”, “bioloji əkinçilik” və “ekoloji balanslaşdırılmış təsərrüfat” və s. kimi nəzərdən keçirilir. Bütün bu təriflərdə intensiv texnogen sistemdən ekoloji cəhətdən davamlı kənd təsərrüfatı sisteminə keçid əsas yer tutur. Bir sıra alimlər “davamlı kənd təsərrüfatı” termininin çoxşaxəliliyini qeyd edərkən təkcə təbii sərvətlərin qorunmasını deyil, həm də kənd əhalisi üçün layiqli həyat şəraitinin yaradılmasını nəzərdə tuturlar.

Kənd təsərrüfatı sektoruna münasibətdə "davamlı inkişaf" anlayışı FAO-nun 1996-cı ildə Romada keçirilən sessiyasında qəbul edilmiş materiallarda aşağıdakı kimi ifadə edilmişdir: "Davamlı kənd təsərrüfatı və Kənd İnkişaf Programının əsas məqsədi ərzaq istehsalının səviyyəsini artırmaq və ərzaq təhlükəsizliyinin təmin edilməsindən ibarətdir. Bu məqsədə nail olmaq üçün təhsil təşəbbüsləri, iqtisadi innovasiyalardan istifadə, yeni texnologiyaların işlənib hazırlanması, bununla belə insanların, xüsusilə yoxsul qrupların qida məhsullarına olan tələbatının təminatı, əmtəə istehsalının inkişafı, yoxsulluqla mübarizə aparmaq üçün işsizliyin azaldılması və gəlir səviyyəsinin yüksəldilməsi, təbii ehtiyatların idarə edilməsi, ətraf mühitin mühafizəsi dəstəklənməlidir" [FAO].

BMT Ətraf Mühit Programı (UNEP) əməkdaşlarının rəyinə görə davamlı kənd təsərrüfatı aqrar sektorda istehsal tsiklinin elə bir formasıdır ki, bu üsul indiki və gələcək nəsillərin ehtiyaclarını ödəməklə yanaşı, rentabelliliyə, ətraf mühitin sağlamlığına və sosial-iqtisadi ədalətə zəmanət verir. O, torpağın münbitliyini qorumaq, suların çirklənməsinin qarşısını almaq və biomüxtəlifliyi qorumaq üçün təbiəti təqlid edən üsullara üstünlük verir. Bu, həmçinin DİM və sıfır aclıq təşəbbüsü kimi qlobal məqsədlərə nail olunmasını dəstəkləmək üçün bir yoldur [UNEP.org/ru/nov].

Kənd təsərrüfatı tədqiqatlarında geniş istifadə olunan konsepsiya ətraf mühitə təzyiqi minimuma endirməklə, mövcud əkinçilik sahələrində ərzaq istehsalının artırılması məqsədini qarşıya qoyan davamlı intensivləşdirmədir [Garnett, 2013]. Qısaca olaraq qeyd olunan konsepsiya təbii ehtiyatların həddən artıq istismar edildiyi və qeyri-davamlı şəkildə istifadə edildiyi bir dünyada artmaqda olan qlobal əhalinin qida, yem və enerjiyə artan tələbatının çağırışlarına cavab kimi qəbul edilə bilər. Qeyd edilir ki, biokütlə istehsalının "intensivləşdirilməsi" üçün səylər bu prosesin davamlı olması üçün düzgün şəkildə təşkil olunmalıdır. Əks halda gələcəkdə qida, yem və enerji istehsal etmək qabiliyyəti zəifləyər və sonradan uğursuzluqla nəticələnə bilər [Caron, 2014; Halberg, 2015].

İ.Q.Uşaçev kənd təsərrüfatının davamlı inkişafının mahiyyətini iqtisadi, sosial və ekoloji komponentlərin vəhdəti kimi xarakterizə edir. Alim hesab edir ki, bu yanaşma iqtisadi artımı və əhali ehtiyaclarının ödənilmə dərəcəsinin ekoloji tələblərə uyğun şəkildə yüksəldilməsini vahid sosial-təbii sistemdə birləşdirməyə imkan verir [Uşaçev İ.Q., 2006].

Digər rus alimi İ.V.Kurtsev hesab edir ki, kənd təsərrüfatının davamlı inkişafı – istehsal tsiklinin hər bir mərhələsində ehtiyatların müsbət nəticələr baxımından daha yüksək səviyyədə təkrar istehsalı: istehsal, iqtisadi və sosial parametrlər, onların təkmilləşdirilməsi imkanlarının ardıcıl şəkildə artırılması deməkdir [Kurtsev İ.V., 2005].

Bəzi alimlər (İ.P.Boyko) hesab edirlər ki, davamlı inkişaf təhlil edilən göstəricinin səviyyəsindən və ya onun dəyişmə sürətindən asılı olmayaraq istənilən istehsal prosesini

xarakterizə edir. Beləliklə, bir məhsul istehsalı sabit ola bilər, lakin ehtiyacları ödəmək üçün kifayət etməz, əksinə ehtiyaclar ehtiyat və idxal hesabına təmin edilsə də, istehsal böyük dalğalanmalarla qeyri-sabit olacaqdır. Digər alimlər (İ.B.Zaqaytov və P.D.Polovinkin, A.Q.Prudnikov, V.İ.Udoviçenko) hesab edirlər ki, artım tempi ehtiyacların dəyişmə sürəti ilə mütənasib olmadıqda sektorun davamlı inkişafından danışmaq mümkün deyil [Zaqaytov İ.B və b., 1984].

Nəzəri nöqteyi nəzərdən davamlı kənd təsərrüfatı istehsalı cəmiyyətin tələbatını ödəmək üçün zəruri olan həcmlərdə istehsal artımını təmin etməlidir.

Davamlı inkişaf konsepsiyası ilə ənənəvi baxışlar və idarəetmə praktikası arasındaki əsas fərqli cəhətlər professorlar Bautin V.M., Kozlov V.V. və başqalarının elmi yaradıcılığında geniş şəkildə təhlil edilmişdir. Həmmüəlliflər davamlı inkişafı "təbiət-əhali-iqtisadiyyat", ekologiya, sosial sfera və iqtisadiyyatın qarşılıqlı prosesi kimi nəzərdən keçirmişlər. Bu klassik triada davamlı inkişaf konsepsiyasında təkcə inteqral məzmun deyil, həm də yeni prioritetləri müəyyən edir [Bautin V.M., Kozlov V.V., 2004]. Davamlı inkişaf proseslərini ekoloji aspektdən tədqiq etmiş iqtisadçı alim Lısenko E.Q. iddia edir ki, kənd təsərrüfatının ekoloji cəhətdən dayanıqlı inkişafının həyata keçirilməsi bir sıra mühüm amillərə kompleks yanaşma əsasında mümkündür. Bunlara kənd təsərrüfatı sahəsində biolojiləşdirmə və ekolojiləşdirmə proseslərinin intensivləşdirilməsi; təbii, texnogen, əmək və digər resurslardan istifadənin differensiallaşdırılması; yüksək məhsuldar və ekoloji cəhətdən davamlı aqrosistemlərin və aqrolandşaftların lahiyələndirilməsi; canlı organizmlərin adaptiv reaksiyalarının idarə edilməsi üzrə tədqiqatların genişləndirilməsi və s. daxildir [Lısenko E.Q., 2000].

Kənd təsərrüfatı müəssisələrinin davamlı inkişafı ideyası aşağıdakı konsepsiya ilə bağlıdır:

- İqtisadi sistemin davamlılığı iqtisadi münasibətlər sistemini əks etdirən iqtisadi kateqoriyadır. Onun həyata keçirilməsi qarşıya qoyulmuş məqsədə uyğun olaraq iqtisadiyyatın dinamik tarazlı inkişafını təmin edir.

Davamlı inkişafın iqtisadi və ekoloji aspektlərini tədqiq etmiş T.V.Qaniyev qeyd edir ki, dayanıqlı ekoloji və iqtisadi inkişaf: təbii, sosial, ekoloji, iqtisadi və siyasi amilləri indiki və gələcək nəsillərin ehtiyacları ilə uzlaşdıran iqtisadi inkişaf modelidir [Qaniyev Q.V., 1995].

Aqrar sektorun davamlı inkişafı bir-biri ilə qarşılıqlı əlaqədə olan iqtisadi, sosial və ekoloji komponentlərlə müəyyən edilir. Aqrar sektorun davamlı iqtisadi inkişafının əsas meyarları əhalinin tələbatını ödəmək məqsədi ilə təhlükəsiz ərzaq məhsulları istehsalının artırılması, istehsalın iqtisadi səmərəliliyinin təmin edilməsi, təkrar istehsalın genişləndirilməsinin stimullaşdırılması və s.-dən ibarətdir. Davamlı inkişafın sosial komponentinə kənd əhalisinin həyat səviyyəsinin və həyat keyfiyyətinin

yüksəldilməsi, kənd yerlərində demoqrafik və miqrasiya proseslərinin sabitləşməsi və s. daxildir.

Stabil, balanslaşdırılmış təbiətdən istifadə uzunmüddətli perspektivdə kənd təsərrüfatı sistemlərinin dayanıqlığının təmin edilməsi, ətraf mühit keyfiyyətinin yaxşılaşdırılması və təbii ehtiyatların qorunması ilə bağlıdır. Aqrar sektorun davamlı ekoloji inkişafı əkin sahələrinin pisləşməsinin və itkisinin qarşısının alınmasında, torpaqların münbitliyinin artırılmasında müstəsna imkanlara malikdir. Aqrar sektorun davamlı inkişaf konsepsiyası ərzaq məhsulları istehsalının artırılması, iqtisadi və intellektual resurslardan səmərəli istifadə edilməsi, kənd sakinlərinin rifahı və həyat keyfiyyətinin yaxşılaşdırılması təbiətin sabit və tarazlı idarə olunması ilə qırılmaz şəkildə bağlıdır. Yalnız iqtisadi, sosial və ekoloji komponentlər tarazlaşdırılarsa, aqrar sektorun davamlı inkişafı uzunmüddətli xarakter ala bilər. Kənd təsərrüfatının davamlı inkişaf komponentlərinin sıx qarşılıqlı əlaqəsi şəkil 1-də göstərilmişdir.




**Şəkil 1. Kənd təsərrüfatının davamlı inkişaf komponentlərinin qarşılıqlı əlaqəsi**

Kənd təsərrüfatı istehsalının davamlılığı sektorun və bazar münasibətlərinin xüsusiyyətləri ilə bağlıdır. Kənd təsərrüfatı istehsalının təbii-iqlim şəraitindən çox asılılığı, kənd təsərrüfatında intensivləşmə və sənayeləşmə prosesinin natamamlığı, istehsal və sosial infrastrukturun mürəkkəbliyi və zəif inkişafı, məhsuldarlığın və əməkhaqlarının aşağı səviyyədə olması və s. səbəblər bu sektoru milli iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha az dayanıqlı edir ki, bu da daimi dövlət dəstəyinə ehtiyac yaradır. Ümumiyyətlə, aqrar sektor qeyri-sabit sistem kimi kənar dəstək olmadan özünü

inkişaf etdirə bilməz. Xüsusilə də aran rayonlarında kənd təsərrüfatı istehsalının səmərəliliyinin yüksəldilməsi və bu sahəyə dövlət dəstəyinin artırılması, kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi, ətraf mühitin gələcək nəsillər üçün qorunub saxlanılması zərurətə çevrilmişdir. Aqrar sektorun davamlı inkişafı ilk növbədə ilkin istehsal zəncirinin (müəssisə) fəaliyyətindən, sahələrarası və sahədaxili rasional əlaqələrdən, təkrar istehsal prosesinin sahələri arasındakı iqtisadi əlaqələrdən asılıdır. Firma, kommersiya təşkilatı səviyyəsində davamlılıq anlayışı adətən onun maliyyə vəziyyəti ilə əks olunur. Belə ki, müasir iqtisadi lüğətdə müəssisə və ya firmaların dayanıqlığı "normal şəraitdə təsərrüfat fəaliyyəti işçilər, digər təşkilatlar və dövlət qarşısındakı bütün öhdəliklərin yerinə yetirilməsini təmin edən kifayət qədər gəlirə və müvafiq xərclərə malik olan müəssisənin maliyyə vəziyyəti" kimi qeyd edilir.

Fikrimizcə, müəssisənin dayanıqlığının yalnız maliyyə vəziyyəti ilə müəyyən edilməsi səhv yanaşmadır. Çünki bu cür yanaşma istehsal fəaliyyətinin digər əsas amillərini nəzərə almır. Bunlardan ən vacibi isə müəssisənin istehsal və texnoloji potensialı, istehlakçıların tələb etdiyi məhsulları istehsal etmək qabiliyyətinin nəzərə alınmamasıdır. Mütəxəssislərin fikrincə, köhnəlmiş istehsal aparatı və texnologiyalar, yeniliklərə qarşı immuniteti olan insan kapitalı həmişə müəssisənin funksiyonal fəaliyyətinin pozulmasına, onun dayanıqlığının zəifləməsinə səbəb olur.

Tədqiqatçıların əsərlərində müəssisənin iqtisadi davamlılığının bir çox tərifləri verilmişdir. Bəzi tədqiqatçılar müəssisənin davamlı fəaliyyətini müxtəlif infrastruktur dəyişiklikləri və istehlakçı tələbatının dəyişməsi fonunda məhsulların satış həcmini uzun müddətə sabit saxlamaq və ya artırmaq qabiliyyəti kimi dəyərləndirirlər [Konçaveli A.A., Kolobov İ.N., 2001].

Bir qrup tədqiqatçılar isə hesab edirlər ki, iqtisadi davamlılıq anlayışı müəssisənin mülkiyyətçilərinin maraqlarını və işçilərin sosial-iqtisadi təminatının nəzərə alınmasını, kapitalın sabit dövriyyəsinin təmin edilməsini, mənfəətin qorunub saxlanılmasını və artırılmasını nəzərdə tutur [Oksaniç N.İ., 2004].

Üçüncülər isə hesab edirlər ki, müəssisənin iqtisadi dayanıqlığı onun xarici mühit amillərinin təsirinə ən az itki ilə uyğunlaşması, onun təsirinə, eləcə də daxili stresslərə adekvat cavab vermə qabiliyyətini əks etdirir [Askerov A.A., 2008].

Biz öz tədqiqatlarımızda "inkişaf" və "davamlı inkişaf" anlayışlarının sinonim olmadıqlarını qəbul edən müəlliflərin mövqeyini bölüşürük.

İnkişaf anlayışı məcburi şərt olaraq sistemin bir vəziyyətdən digərinə kəskin, sıçrayışlı keçid dövrlərinin ardıcıllığını nəzərdə tutur. Başqa sözlə "inkişaf" nizamlı dövriyyə ilə təkrarlanan proses kimi təqdim olunur. "İnkişaf" zamanı mütəmadi olaraq baş verən böhranlardan fərqli olaraq, "davamlı inkişaf" sistemin bir-biri ilə əlaqəli elementləri: iqtisadiyyat, sosial sfera və ətraf mühit arasında tarazlığın qorunmasını nəzərdə tutur.

Beləliklə, “kənd təsərüffatı iqtisadiyyatının dayanıqlı inkişafı” üçün onun qeyri-müəyyən müddətə stress faktorlarından yayınması ilə yanaşı, təbii mühiti, istehsal vasitələrini və insan resurslarını təkrar istehsal etmək qabiliyyətinə malik olması zəruridir.
Aqrar sektorun davamlı inkişafı bir-biri ilə sıx bağlı olan üç komponentlə - iqtisadi, sosial və ekoloji komponentlərlə müəyyən edilir. Davamlı inkişaf o halda əldə edilir ki, uzun müddət istehsal potensialının, insan resurslarının və təbii mühitin təkrar istehsalı vəhdət və qarşılıqlı əlaqədə təmin olunsun. Kənd təsərrüfatının və onun ayrı-ayrı sahələrinin davamlı inkişafında dövlətin sosial-iqtisadi və aqrar siyasəti həlledici rol oynayır.

**Davamlı inkişaf amilləri**

Mürəkkəb, açıq və çoxşaxəli sistem kimi aqrar sektorun davamlı inkişafı bir sıra amillərlə bağlıdır. Aqrar sektorun inkişafının davamlılığını formalaşdıran amillər təsnif edilərkən aşağıdakı müddəalar nəzərə alınmalıdır: aqrar sektorun davamlılığının iqtisadi, sosial və ekoloji komponentlərə bölgüsü məqbul variant hesab edilə bilər; davamlı inkişafa təsir göstərən amilləri xarici və daxili olmaqla iki qrupa bölmək olar (Şəkil 2).
Davamlı inkişaf prosesində xarici amillər: institusional mühit; resursların əlçatanlığı; rəqabət mühiti; daxili tələbatın inkişafı (artan daxili tələbat); dövlət dəstəyi; sektorlararası mübadilə şərtləri; satış bazarlarının miqyası və inkişafı; dövlətin elmi-texniki siyasəti; investisiya mühiti; qiymət və vergi siyasəti; təbii şərait; ətraf mühitin və təbii ehtiyatların vəziyyəti; ASK-da kooperasiya və inteqrasiya əlaqələri; kəndin sosial inkişafı və s. həlledici rol oynayır. Xarici mühit (ətraf mühit) amilləri aqrar sektorun və onun təsərrüfat subyektlərinin fəaliyyəti üçün ən mühüm şərt hesab edilir. Xarici mühit amillərinin davamlı inkişafa stimullaşdırıcı və məhdudlaşdırıcı təsiri ilk növbədə ölkənin sosial-iqtisadi və aqrar siyasətindən asılıdır.
Konkret regionda kənd təsərrüfatının davamlı inkişaf səviyyəsi - müvafiq aqrar qanunvericiliyin qəbulu və tənzimlənməsi, büdcə təminatının səviyyəsi, kənddə çoxfunksiyalı iqtisadiyyatın formalaşdırılması, tədarük olunan maddi resursların bazarı, yerli məhsulların satışına dövlət dəstəyinin olması ilə müəyyən edilir.
Daxili amillərin aqrar sahənin davamlı inkişafına təsiri, resurs potensialından səmərəli istifadə edilməsi və şaxələndirilməsi səviyyəsi, müasir texnologiyaların aqrar sahəyə tətbiqindən baş çıxaran yüksəkixtisaslı idarəetmə komandasının olmasından asılıdır.
Kənd təsərrüfatının və onun ayrı-ayrı sahələrinin davamlı inkişafına həm də kənd təsərrüfatı istehsalının yerli xüsusiyyətlərə uyğun yerləşdirilməsi, ixtisaslaşması və təmərküzləşməsi; intellektual resurs potensialı; daxili infrastruktur; mövcud potensialdan istifadə; məhsulun keyfiyyət və rəqabət qabiliyyəti; müəssisənin təşkilatı-iqtisadi forması; istehsal və idarəetmənin təşkili; bazarda tələb, təklif və qiymətlərin dəyişməsi nəzərə alınmaqla investisiya və innovasiya fəaliyyəti; enerji gücünün,

resursların, kənd təsərrüfatı xammalının ehtiyatlarının olması; əməyin motivasiyası və s. kimi daxili amillər təsir edir.




**Şəkil 2. Aqrar sahənin davamlı inkişaf amilləri**

Hesab edirik ki, bütün istehsal amilləri tarazlaşdırılarsa, həyata keçirilən sosial-iqtisadi və aqrar siyasət hüquqi və maliyyə resursları ilə təmin olunarsa, kənd təsərrüfatı mürəkkəb istehsal sistemi kimi davamlı inkişaf edə bilər. Əgər istehsal amilləri balanslaşdırılmış olmazsa və resurs potensialından istifadə səviyyəsi aşağı olarsa, sistem (aqrar sektor) dayanıqsız olacaqdır.

Davamlı inkişafda davamlılığın iqtisadi, sosial və ekoloji komponentlərinin uyğunlaşdırılması kimi təqdim edilən "institusional mühit" xüsusi əhəmiyyət kəsb edir.

Qeyd etməliyik ki, Azərbaycan kəndlərində "institusional mühit" sovxoz və kolxoz sistemlərinin spesifik xüsusiyyətlərinin təsiri altında inkişaf etmişdir. Azərbaycan kəndlisinin çoxəsrlik mənəvi və əxlaqi xüsusiyyətləri, adət-ənənələri, davranış və təfəkkür stereotipləri, spesifik həyat tərzi formalaşmışdır ki, bu da müəyyən dərəcədə indi də kənd yerlərində bazar iqtisadiyyatı prinsiplərinin inkişafına müəyyən dərəcədə təsir edir.

**Kənd təsərrüfatının davamlı inkişaf indikatorları**

Hesab edirik ki, kənd təsərrüfatı sektorunun davamlılığını kəmiyyətcə xarakterizə etmək üçün indikatorlar sistemindən istifadə edilməsi məqsədəuyğundur (Şəkil 3).




| *İqtisadi* | *Sosial* | *Ekoloji* |
|---|---|---|
| - Məhsulun artım tempi<br>- Adambaşına istehsal<br>- Məhsullarla özünütəminetmə səviyyəsi<br>- Təminat səviyyəsi və resursların balanslılığı<br>- İnnovativ fəaliyyətin göstəriciləri<br>- Müəssisənin maliyyə vəziyyətinin göstəriciləri | - Kənd təsərrüfatında və bütövlükdə iqtisadiyyatda əməkhaqqının nisbəti<br>- Sektorda istehlak qiymətlərinin və əməkhaqqının nisbəti<br>- Kadr axıcılığı səviyyəsi<br>- Kadrların ixtisası | - Yüksək texnogen yüklü torpaqlar<br>- Eroziyaya məruz qalan torpaqlar<br>- Şoranlaşmış, bataqlıqlaşmış və kolluqlaşmış torpaqlar<br>- Becərilməyən torpaqlar<br>- Torpaq münbitliyinin azalması |

**Şəkil 3. Kənd təsərrüfatının davamlı inkişaf indikatorları sistemi**

Kənd təsərrüfatı istehsalının davamlılıq dərəcəsinin qiymətləndirilməsi problemi də zəruri məsələlərdəndir. Bu məqsəd üçün nəzəri səviyyələrə nisbətən, dinamik proseslərin faktiki səviyyələrində dalğalanmaları ölçən davamlılıq əmsallarından istifadə olunur [İvanov V.A., Ponamareva A.S., 2011].

Davamlılığın qiymətləndirilməsindən asılı olaraq bu konsepsiyanın mahiyyətini xarakterizə edən indikatorlar da dəyişir.

Mütəxəssislərin fikrincə, indikatorlar aşağıdakı meyarlara cavab verməlidir:

- Ölkə, region, sektor, müəssisə səviyyəsində ölçülə və istifadə edilə bilən olmalıdır.
- Mövcud statistik hesabatlara istinad etməlidir.
- Məhdud sayda əsas indikatorlardan istifadə edilməlidir.

Azərbaycan Respublikasında aqrar sektorun davamlı inkişafı ölkə iqtisadiyyatı qarşısında duran birinci dərəcəli prioritet məsələdir. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 16 aprel 2014-cü il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq aqrar sektorda innovativ texnologiya və üsulların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsulların istehsalı, emalı, qablaşdırılması və xidmətlərin göstərilməsi, o cümlədən məhsulların saxlanması, çeşidlənməsi və satışı ilə bağlı fəaliyyətləri həyata keçirəcək aqroparkların yaradılması nəzərdə tutulmuşdur. Hazırda respublikada 32 rayon üzrə 240 min ha ərazidə ümumi layihə dəyəri 2.3 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatları yaradılır. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-i isə emal sənayesi üzrə ixtisaslaşmışdır. Bunlardan 44 aqropark fəaliyyətə başlayıb [economy.gov.az].

Bu vaxta kimi aqroparklarda ümumi olaraq 5000-dək insan daimi, 4500-dən çox insan mövsümi işlərlə təmin edilib. Fəaliyyətdə olan və təşkil ediləcək aqroparklarda əlavə 4300-dən çox iş yerinin yaradılması nəzərdə tutulur [agro.gov.az]. Hazırkı vəziyyətdə aqroparklara dair statistik göstəricilərin təhlili göstərir ki, bir aqroparkda orta hesabla 270 nəfər işlə təmin edilmişdir. Aqroparkların ümumi ərazisinin 240 min ha olması nəzərə alınarsa, 17 ha sahəyə 1 nəfər məşğul əhali düşür.

Aqrar sektorun davamlı inkişafı istiqamətində həyata keçirilən islahatlar sırasında aqroparkların yaradılması ideyası təqdirəlayiq hadisədir. Çünki aqroparklar aqrar sektorda istehsalın elmi əsaslarla təşkilinin ən mütərəqqi formasıdır və kənd təsərrüfatının davamlı inkişafında lokomotiv rolunu oynaya bilər. Aqroparklar ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, regionlarda işsizliyin, natamam məşğulluğun aradan qaldırılması və ölkənin idxaldan asılılığının azaldılmasına töhfə verməlidir. Hesab edirik ki, aqroparkların kənd təsərrüfatında əsas lokomotivə çevrilməsi üçün bu sahədə klasterləşmənin həyata keçirilməsi, dərin emal həyata keçirəcək əlavə dəyər zəncirlərinin yaradılması son dərəcə zəruridir.

## Nəticə

Beləliklə, kənd təsərrüfatının davamlı inkişafının nəzəri və metodoloji məsələləri haqqında alim və iqtisadçıların elmi tövsiyələri və apardığımız araşdırmalar aşağıdakı nəticələri çıxarmağa imkan verir:

- Hər hansı ölkədə, iqtisadi rayonda və zonada müstəqillik və bazar münasibətləri şəraitində kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi perspektiv inkişafın zəruri şərtidir.
- Kənd təsərrüfatı sektorunun davamlı inkişafı bir-biri ilə sıx əlaqəli üç komponentlə: iqtisadi, sosial və ekoloji amillərlə müəyyən edilir. İstehsal potensialının, insan resurslarının və təbii mühitin təkrar istehsalı uzunmüddətli vəhdət halında və qarşılıqlı əlaqədə təmin olunarsa, davamlı inkişafa nail olunur.
- Kənd təsərrüfatının davamlı inkişafına təsir göstərən amilləri xarici və daxili amillər olmaqla 2 qrupa bölmək olar. Davamlı inkişafda xarici amillər həlledici əhəmiyyətə malikdir.
- Dayanıqlı kənd təsərrüfatı sisteminin yaradılması prosesi özlüyündə kənd təsərrüfatının inkişafı üçün əlverişli şərait yaratmaq məqsədi ilə kənddə istehsal münasibətlərinin insanların mənafeyinə uyğunlaşdırılmasının mürəkkəb və uzunmüddətli sosial-iqtisadi prosesidir. Davamlı inkişaf eyni zamanda kənd təsərrüfatı istehsalının səmərəliliyinin, ətraf mühitin mühafizəsinin, aqrar sektorun iqtisadi cəhətdən rəqabətə davamlılığının və bazar şərtlərinə uyğunlaşdırılması və ərzaq təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edir.
- Kənd təsərrüfatının davamlı inkişafının nəzəri və praktik məsələləri elmin fəal iştirakı olmadan həll edilə bilməz. Bu mənada elmi müəssisələrin, universitet alimlərinin, xüsusilə gənc kənd təsərrüfatı alimlərinin diqqətini aqrar sektorun davamlı inkişafının təmin edilməsinin vacib problemlərinə yönəldilməsi son dərəcə zəruridir.

**Ədəbiyyat**


1. agro.gov.az
2. Аскеров А. А. Устойчивое развитие экономике сельского хозяйства. автореф. дис. Д- ра экон.наук. - Оренбург, 2008. - 42 с.
3. Баутин В.М. , Козлов В. В. и др. Устойчивое развитие сельских территорий. Вопросы стратегии и тактики. - М. ФГНУ Росинформагротех. 2004. 312 с.
4. Boettiger S., Denis, N., & Sanghvi, S. (2017). Successful agricultural transformations: six core elements of planning and delivery. McKinsey & Company. Available at: https://www.mckinsey.com/industries/chemicals/our-insights/successful-agricultural-transformations-six-core-elements-of-planning-and-delivery.
5. Бондаренко Л. В. Российское село в эпоху перемен: занятость, доходы, ифраструктура. - М. ВНИЭСХ. 2003. 508 с.
6. Caron, P., Biénabe, E., & Hainzelin, E. (2014a). Making transition towards ecological intensification of agriculture a reality: The gaps in and the role of scientific knowledge. Sustainability Governance and Transformation, 8, 44–52.
7. economy.gov.az

8. Garnett, T., Appleby, M. C., Balmford, A., Bateman, I. J., Benton, T. G., Bloomer, P., et al. (2013). Sustainable intensification in agriculture: Premises and policies. Science, 341(6141), 33–34.
9. Halberg, N., Panneerselvam, P., & Treyer, S. (2015). Eco-functional intensification and food security: Synergy or compromise? Sustainable Agriculture Research, 4(3), 126–139.
10. Иванов В. А. , Понамарева А. С. Методологические основы устойчивого развития аграрного сектора. Экономические и социальные перемени: факты, тенденции, прогноз. 4(16) 2011. (Електроный ресурс) Syberleninka.ru
11. Кончавели А. А. , Колобов И. Н. и др. Стратегические управление организационно - экономической устойчивостью фирмы: логистико ориентированное проектирование бизнеса. - М. Издательство МНТУ им. Н. Э. Баумана, 2001. - 600 с.
12. Курцев И. В. Устойчивое развитие агропромышленного комплекса Сибири: предпосылки, факторы, пути. РАСХН; - Новосибирск, 2005. - 374 с.
13. Ганиев Т. Б. Пути устойчивости эколого - экономического развития аграрного производства Таджикистана. Душанбе. 1995.
14. Лысенко Е. Г. Эколого - экономические основы эффективности сельского хозяйства. М. МСХА. 2000. 269 с.
15. Оксанич Н. И. Управление финансовой устойчивостью предприятий. - М. ВНИЭТУСХ, 2004. - 236 с.
16. Promoting Sustainable Agriculture and Rural Development: Agenda 21 Chapter 14. Rome: FAO, 1996.
17. SDG 2. Knowledge Platform (2019). Food security and nutrition and sustainable agriculture. Available at:https://sustainabledevelopment.un.org/topics/foodagriculture.
18. Un. org/ sustainable development
19. unep.org.ru
20. Ушачев И. Г. Устойчивое развитие агропродовольственного сектора: основные направления и прблемы. - М, Росинформагротех, 2006. - с.3-25.
21. Загайтов И. Б. , Половинкин В. Д. Экономические проблемы повышения устойчивого сельскохозяйственного производства. М. 1984.240 с.

# KİÇİK VƏ ORTA TURİZM SAHİBKARLIĞININ İQTİSADİ İNKİŞAFA TƏSİRLƏRİ

*Daxil olub: 11 may 2023-cü il*
*Qəbul olunub: 7 iyun 2023-cü il*
*Received: 11 May 2023*
*Accepted: 7 June 2023*

***Ceyhun Nuriyev***
*doktorant, UNEC*
*jeyhunuriyev@gmail.com*

## Xülasə

Tədqiqat işinin məqsədi Azərbaycanda iqtisadi inkişafın artırılmasında turizm sahəsindəki kiçik və orta sahibkarlıq müəssisələrinin əhəmiyyətini qeyd etməkdir. Tədqiqat işində statistik və təhlil metodlarından istifadə olunmuşdur. Tədqiqat işində kiçik və orta sahibkarlıq müəssisələrinin iqtisadi inkişafa gətirdikləri üstünlüklərin əks olunması onun elmi yeniliyi hesab oluna bilər. Tədqiqat işində kiçik və orta turizm sahibkarlığı müəssisələrinin gəlir əldə etməsi, bu müəssisələrin vasitəsilə məşğulluğun təmin edilməsi, eyni zamanda iş yerlərinin yaradılması, vergilərin yığılmasında rol oynamasının iqtisadi inkişaf üçün əhəmiyyəti qeyd olunub. Tədqiqatın nəticə hissəsində kiçik və orta turizm sahibkarlığı müəssisələrinin iqtisadi inkişafa təsirləri ilə əlaqədar təkliflər irəli sürülmüşdür.

***Açar sözlər:*** *turizm, kiçik və orta sahibkarlıq, iqtisadi inkişaf.*

# IMPACTS OF SMALL AND MEDIUM TOURISM ENTREPRENEURSHIP TO ECONOMIC DEVELOPMENT

***Jeyhun Nuriyev***
*Ph.D. student, UNEC*
*jeyhunuriyev@gmail.com*

## Abstract

The purpose of the research is to highlight the importance of small and medium-sized business enterprises in the field of tourism in increasing economic development in Azerbaijan. Statistical and analytical methods were used in the research. The reflection of the advantages brought by small and medium enterprises to economic development in the research work can be considered as its scientific innovation. In the research work, the importance of small and medium-sized tourism entrepreneurship enterprises to generate income, to provide employment through these enterprises, and at the same time to play a role in creating jobs and bringing in taxes, for economic development was noted.In the final part of the study, proposals were made regarding the effects of

small and medium-sized tourism entrepreneurship enterprises on economic development.

**Keywords:** *tourism, small and medium entrepreneurship, economic development.*

## ВЛИЯНИЕ МАЛОГО И СРЕДНЕГО ТУРИСТИЧЕСКОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ

***Джейхун Нуриев***
*докторант, Азербайджанский государственный экономический университет*
*jeyhunuriyev@gmail.com*

**Резюме**
Цель исследовательской работы - отметить значение малого и среднего бизнеса в сфере туризма в повышении экономического развития Азербайджана. В исследовательской работе использовались статистические и аналитические методы. Отражение в исследовательской работе преимуществ, которые приносят экономическому развитию предприятия малого и среднего бизнеса, можно считать его научной новизной. В исследовательской работе подчеркивается важность малых и средних предприятий туристического предпринимательства для получения дохода, обеспечения занятости через эти предприятия и в то же время роль в создании рабочих мест и сборе налогов для экономического развития. В заключительной части исследования были сделаны предложения относительно влиянии малых и средних предприятий туристического предпринимательства на экономическое развитие.

***Ключевые слова:*** *туризм, малое и среднее предпринимательство, экономическое развитие.*

### Giriş

Turizm dünyanın ən böyük sənayelərindəndir və həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatının inkişafına müsbət cəhətdən böyük təsir göstərir. Azərbaycan turizmin inkişafına görə böyük potensiala sahib ölkələrdən biridir. Azərbaycan ərazisində turizm sahəsi ilə məşğul olan sahibkarlar üçün əlverişli şərait vardır. Bu sektorun fərqli olmasının səbəbi odur ki, məhsulu istehlakçıya aparmaq əvəzinə, istehlakçını istehsal yerinə gətirir. Turizm sektorunda hava, dağlar və iqlim kimi elementlər iqtisadi məhsula çevrilir. Turizm hadisəsinin tədqiqi və ölçüsünü müəyyən

etmək üçün müxtəlif tədqiqatlar aparılmış və bu gün də aparılır. Tturizm səyahət, nəqliyyat, iqtisadi, sosial və istehlak kimi anlayışlarla sıx əlaqəlidir.

**Turizm sahəsi**

Təriflərə görə turizm fəaliyyəti üç ayrı hadisəni əhatə edir. Bunlar köçmə, səyahət və yaşayışdır:

- Köçmə. Turizm insanların yaşadığı, işlədiyi və əsas ehtiyaclarını ödədiyi yerlərdən kənara səyahətdir.
- Səyahət. Səyahətçilər qaldıqları müddətdə turizm müəssisələri tərəfindən istehsal olunan məhsul və xidmətləri tələb edirlər.
- Yerləşdirmə. Turizmdə yerləşmə müvəqqətidir. Səyahət edən və qalan şəxs müəyyən müddətdən sonra yaşadığı yerə qayıdır [1, s. 36].

Turizm sektorunun nə qədər mürəkkəb olduğunu və onun iqtisadi, sosial və mədəni həyata olan töhfəsinin nə qədər vacib olduğunu başa düşmək üçün bu sektorun iqtisadi xüsusiyyətlərindən bir neçəsini sadalamaq olar:

- Turizm sektoru xidmətlər sektoruna daxildir. Lakin sektorun xüsusiyyətinə görə digər sektorlarla əlaqədədir. Çünki yerli və ya xarici turistlərə satılan məhsul və xidmətlər digər sektorların aktiv rol oynadığı zaman mümkündür.
- Bu sektorun xammalını ölkədəki təbii sərvətlər və ölkənin ictimai-mədəni xüsusiyyətləri təşkil edir. Ona görə də xammal baxımından digər sektorlar kimi xarici mənbələrdən asılı deyil. Sektorun inkişafı ölkənin malik olduğu resurslara əsaslanır.
- Digər bir xüsusiyyət isə əmək tutumlu struktura malik olmasıdır. Mexanikləşdirmə və avtomatlaşdırma bu sektora uyğun olmadığı üçün əmək faktoruna ehtiyac var. Böyük iş yerlərinin yaradılması potensialına malikdir [1, s. 37].

Azərbaycanda coğrafi, iqtisadi və təbii sərvətlərin mövcudluğu regionun gələcək inkişafı üçün ilkin əhəmiyyət kəsb edir. Lakin əldə olunan nailiyyətlər regionların mövcud potensialının rasional istifadəsini tam əks etdirmir. Qeyri-neft sektorunun mütənasib inkişafı yalnız makroiqtisadi sabitliyi qorumaqla daimi iqtisadi inkişafa imkan verir. Sosial sahənin inkişafı iqtisadi vəziyyətin yaxşılaşdırılması, insanların gəlir əldə etmək imkanlarının artırılması və sonradan yoxsulluğun azaldılmasının ən mühüm amillərindən biridir. Hazırda respublikada mövcud potensialdan daha sərfəli istifadə etməklə sənayenin və kənd təsərrüfatının müxtəlif sahələrində sürətli inkişafa nail olmaq mümkündür. Ölkənin hərtərəfli iqtisadi inkişafı, sahibkarlığın dəstəklənməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluq problemlərinin həlli gündəlikdəki ən mühüm dövlət məsələlərini əhatə edir. Bütün regionların dövlət proqramlarında nəzərdə tutulmuş bu kontekstlə bağlı məsələlərin layiqincə və uğurlu həlli üçün restrukturizasiya və təkmilləşdirmə məsələləri saxlanılır. Hazırda ölkədə infrastrukturun formalaşdırılmasına, qlobal iqtisadi məkanda mövcud potensialın təşviqinə, xüsusilə qeyri-neft sahəsinin inkişafına böyük diqqət yetirilir. Ölkədə

aparılan kəşfiyyatlar və xarici ölkələrdən gələn hesabatlar göstərir ki, turizm ən perspektivli, potensialı yüksək olan sektorlardan biridir [2, s. 272].

**Kiçik və orta sahibkarlıq müəssisələri**

KOS-lar xüsusilə məşğulluq imkanları və ətraf mühitdəki dəyişikliklərə sürətlə reaksiya verən çevik strukturları əsasında milli iqtisadiyyatların inkişafında və qlobal rəqabətin mənfi təsirlərindən qorunma prosesində kifayət qədər təsirli rola malikdirlər. Bundan əlavə, yadlaşmanı qoruyan yerli xüsusiyyətlərinə və orta sinfi gücləndirən rollarına görə KOS-lar həm də sosial perspektiv kimi mühüm əhəmiyyət kəsb edir. Bir çox müəlliflər KOS-ları iqtisadi inkişafın dayağı və sosial sabitliyin əsas amili kimi əsaslandırırlar. Bu şirkətlərin töhfələrini aşağıdakı kimi bir neçə əsas məqamda ümumiləşdirmək olar:

a) Kiçik və orta sahibkarlıq ölkənin məşğulluq problemlərini həll edir.

b) Kiçik və orta sahibkarlıq ölkənin ÜDM-ə mühüm töhfə verir.

c) Kiçik və orta sahibkarlıq iri müəssisələrin inkişafına dəyərli töhfə verir.

d) Kiçik və orta sahibkarlıq ölkənin ixrac-idxalına da mühüm töhfə verir [3, s.398]. Azərbaycanda KOS-ların gələcək inkişafı diversifikasiya, məşğulluq, yerli resurslardan istifadə etməklə daxili istehlak mallarına tələbatın ödənilməsi, idxaldan asılılığın aradan qaldırılması və davamlı iqtisadi artıma nail olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, KOS formasında sahibkarlıq fəaliyyətinə sahibkarlığın birinci və əsas forması kimi baxmaq lazımdır. Bu gün Azərbaycan hökumətinin əsas diqqəti qeyri-neft, ticarət sahələrinin inkişafını gücləndirən şəraitin yaradılmasındadır. Bu baxımdan diversifikasiya vacibdir. Şaxələndirmənin əsasını sahibkarlıq üçün əlverişli mühitin yaradılması və stimullaşdırılması təşkil edir ki, bu da bir sıra ölkələr kimi Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb edir [4, s.11].

Kiçik və orta müəssisələr marketinq imkanları məhdud olan, öz səyləri ilə ayaqda qalmağa çalışan, daxili bazarlar üçün məhsul və xidmətlər istehsal edən, yerləşdikləri regionun iqtisadiyyatına əhəmiyyətli töhfə verən, az kapitalla qurulan kiçik müəssisələrdir. KOS-lar iri müəssisələrlə müqayisədə arxa planda qalan, öz sərmayələri ilə həyatlarını davam etdirən, öz əmanətləri ilə ayaqda qalmağa çalışan, bütün ticarət və sənaye əməliyyatlarını yerinə yetirən xidmət və istehsal bölmələridir. KOS-ların nə olduğunu başa düşmək üçün onların necə fəaliyyət göstərdiyini və inkişafının niyə bu qədər vacib olduğunu bilmək lazımdır.

KOS-lar rəqabət mühitində həyatlarını davam etdirdikləri üçün yeni texnologiyalara əməl etməli və tətbiq etməlidirlər. KOS-larda kifayət qədər kapital olmur. Kiçik müəssisələrin təsnifatı və növlərinin araşdırılması bu müəssisələrin funksiyalarını daha yaxşı başa düşməyə imkan verir. Kiçik müəssisələrin təsnifatında müəssisənin yaranma yeri və təyinatı, kapitalın strukturu, işçilərin sayı, işçilərə ödənilən əməkhaqqının

məbləği, istifadə olunan dəzgah və skamyaların sayı, satışın məbləği mühüm meyar kimi müəyyən edilir.

KOS-un inkişafı bir sıra amillərdən asılıdır. Geniş mənada bunları aşağıdakı kimi təsvir etmək olar:

- Biznes mühiti. Onların inkişafı üçün qeydiyyat xərcləri, lisenziyaların ödənilməsi və emal müddətindən başlayaraq giriş dəyəri çox vacibdir. Bu məsrəflər biznes əməliyyatları zamanı ödənilə bilməz, çünki ilkin kapital kimi tələb olunur.

- Makroiqtisadi faktorlar. KOS-ların böyüməsinə töhfə verən əsas makroiqtisadi amillər arasında dövlət xərcləri də var. Dövlət satınalmaları qeydiyyatdan keçmiş KOS-ların inkişafına kömək edir, eyni zamanda qeydiyyatdan keçməmiş KOS-ların inkişafına mane olur.

- KOS-ların böyümə imkanları. KOS-lar fəaliyyətinin ilkin mərhələsində iflas riskinə məruz qalırlar. KOS-ların sağ qalma əmsalları, xüsusilə birinci ildən sonra yüksək deyil. Yaxşı işləyən bir infrastruktur KOS-ların böyüməsinə qatqı təmin edir.

- Tarixi determinantlar. Tarixən əlverişli coğrafi yerlərdə yerləşən müəssisələr sağ qalmağa və böyüməyə meyillidirlər [5, s. 39].

Kiçik və orta müəssisələr əhalinin ehtiyaclarına daha çox cavab verir və bazar konyunkturunun dəyişmələrinə daha tez reaksiya verə bilirlər. Kiçik və orta sahibkarlığın yüksək inkişafı istehsal sahələrinin daha çox subyektlər arasında bölüşdürülməsinə də kömək edir. Təsadüfi deyil ki, inkişaf etmiş ölkələrin hər birində kiçik və orta biznesin inkişafına dəstək məqsədilə dövlət tərəfindən maliyyələşdirilən fondlar yaradılır. Kiçik və orta biznesin iqtisadiyyatda ən böyük rolu rəqabətin qorunmasıdır. Bu sektoru inkişaf etdirməklə ölkədə rəqabət mühitini gücləndirmək mümkündür. İqtisadiyyatın bu sektoruna daha bir mühüm töhfə yeni iş yerlərinin açılmasıdır. Ölkə iqtisadiyyatının gücü onun sahələrinin inkişaf səviyyəsindən, hətta hər bir təsərrüfat subyektinin, müəssisə və təşkilatının gücündən asılıdır. Hər bir müəssisənin inkişafı nə qədər dinamik və davamlı olarsa, sahə bir o qədər güclü olar. Bütün sahələr güclü inkişaf edərsə, ölkə iqtisadiyyatı daha güclü olar. Hər hansı bir müəssisənin uğurlu nəticəsi bir çox amillərdən asılıdır. Onlardan biri müəssisənin davamlı və dayanıqlı idarə olunmasıdır. Davamlı inkişaf bazarda ən vacib şərtlərdən biridir. Əgər müəssisə rəqabətə davamlıdırsa və perspektiv planlar üzərində işləmək istəyirsə, bu, davamlı inkişafı təmin etməlidir. Bunun üçün kifayət qədər ilkin kapital və dövriyyə kapitalı, kifayət qədər peşəkar kadr potensialı, həmin sahədə strateji planlar, tendensiyalar və perspektivlər inkişaf etdirilməli, düzgün taktika, strategiya seçilməlidir. Bu qeydlərin həyata keçirilməsi təşkilatın mövcudluğunun ayrılmaz elementi olduğu üçün təşkilatın davamlılığının və idarə edilməsinin əsasını təşkil edir. Müəssisələr üçün davamlılığın təmin edilməsinin əhəmiyyəti onun yüksək səviyyədə idarə olunması və saxlanması üçün çox vacibdir. Kiçik və orta biznesin davamlı inkişafını təmin etmək üçün

sahibkarların maliyyə imkanları genişləndirilməlidir. Yəni bu sektorda çalışan sahibkarlar təkcə dövlətdən deyil, özəl qurumlardan da maliyyə resurslarına çıxış əldə etməlidirlər. İxrac imkanları olan kiçik və orta müəssisələrə ixrac həcminə görə subsidiyalar verilə bilər [6, s. 1229].

Aşağıdakı cədvəldə turizm sektoruna aid mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı ilə əlaqədar bir neçə statistik göstəricilər qeyd olunmuşdur.

**Cədvəl 1. Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| İqtisadi fəaliyyət/ mülkiyyət növləri | Cəmi | 2020 | | | Cəmi | 2021 | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | ***20513*** | **20286** | **149** | **78** | ***21693*** | **21404** | **192** | **97** |

***Mənbə***: *[7]*

Cədvəl 1-də 2020 və 2021-ci illərdə turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı qeyd olunub. Qeyd olunan göstəricilərə baxsaq 2020-ci ildə turizm sektorundakı mikrohəcmli sahibkarlıq subyektlərinin sayı 20286, 2021-ci ildə isə 21404 ədəd olmuşdur. 2021-ci ildə 2020-ci ilə nisbətən mikrohəcmli sahibkarlıq subyektlərinin sayında 5,52%-ə yaxın artım olmuşdur. Kiçik həcmli sahibkarlıq subyektlərinin sayı 2020-ci ildə 149, 2021-ci ildə isə 192 ədəd olmuşdur, 2021-ci ildə 2020-ci ilə nisbətən 28,86%-ə yaxın artım olduğunu deyə bilərik. Orta həcmli sahibkarlıq subyektlərinin sayı isə 2020-ci ildə 78, 2021-ci ildə 97 ədəd olub və 2021-ci ildə 2020-ci ilə nisbətən 24,36%-ə yaxın artım olmuşdur. Bu kimi müəssisələrdə say artımının olması yaxşı haldır. Bu artım da təbii ki, iqtisadi inkişafda müsbət rol oynayır.

## Turizmin sosial-iqtisadi inkişafa təsirləri

Ümumiyyətlə, turizm sektorunun inkişafının səviyyəsi hər bir ölkədəki inkişaf səviyyəsi ilə əlaqədar olmaqla həm özünü maliyyələşdirən, həm də əlavə olaraq gəlir gətirən bir sahədir. Bununla əlaqədar olaraq turizm sahəsinin inkişafı bazar iqtisadiyyatında önəmli rol oynayır. Turizm sahəsinin inkişafından əldə olunan mənfəətlərə aşağıdakıları aid etmək olar:

1. Ölkədəki yerli firmaların dəstəklənməsi əhalinin məşğulluğunun təmin olunması ilə yanaşı, gəlir də gətirir. Turizm sahəsinin inkişafı ilə əlaqədar vacib olan infrastruktur bir neçə başqa sahələrin iqtisadi artımına səbəb olur. Turistlərlə ünsiyyətdə olmaqla, yerli əhalinin təhsil, mədəni səviyyəsi, dünya görüşü inkişaf edir.

2. Ölkə əhalisinin öz mədəni irsinə marağı artır. Turizm şirktələri tərəfindən təşkil olunan xeyriyyəçilik proqramları vasitəsilə sosial mənfəət əldə edilir.
3. İqtisadi cəhətdən zəif inkişaf etmiş regionlarda həmçinin ətraf mühitin qorunması məsələləri həll edilir [8, s. 40].

**Nəticə**

KOS-lar iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir. Turizm sektorundakı kiçik və orta sahibkarlıq müəssisələrinin iqtisadi inkişafa təsirində yeniliklərin tətbiq olunması aşağıdakılara səbəb olur:

- yüksək çeviklik və yeni bazarlara uyğunlaşma dərəcəsi KOS-lara iqtisadiyyatda resurslardan istifadə imkanlarını artırmağa imkan verir;
- bundan əlavə, onlar xüsusi mülkiyyət və sahibkarlıq bacarıqlarını təşviq edirlər. KOS-lar bazar iqtisadiyyatlarında, eləcə də keçid dövrünü yaşayan ölkələrdə artımın mühərrikləridir.

Sonda bu araşdırmada təklif olaraq onları qeyd edə bilərik ki, KOS-ların turizm sahəsində vacibliyini nəzərə alaraq onların sayının artırılması yeni iş yerlərinin yaradılmasına kömək edə bilər, həmçinin belə sahibkarlıq subyektləri müştərilər üçün qiymət baxımından iri saibkarlıq müəssisələrinə nisbətən daha münasib olduğuna görə yerli və xarici turistlərin daha çox axınına, bu da öz növbəsində həmin müəssisələrin gəlirinin artmasına səbəb olur. Müəssisələrin gəlirinin artması vergilərin də artmasına kömək edir. Ölkəmizdə bu kimi müəssisələrə investisiyaların qoyulması bu sahənin inkişafına səbəb ola bilər. KOS-ların fəaliyyəti həyat səviyyəsini yaxşılaşdırır, ÜDM-i və daxili iqtisadiyyatın rəqabət qabiliyyətini artırır. Bunlar da iqtisadi inkişafa müsbət cəhətdən əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

**Ədəbiyyat**

1. Haddadzadehhendou, F. Turizm Destinasyonlarinin Etkin Yönetimi Ve Etkileyen Faktörler: Turizm Sektöründe Bir Araştırma: Yüksek Lisans Tezi. / –Erzurum, 2013. – 137 s.
2. Gandilova, S.T. Role of tourism in social development of the republic of Azerbaijan // 37th International Scientific Conference on Economic and Social Development, – Baku: Socio Economic Problems of Sustainable Development, 14-15 February, – 2019, – p. 271-278.
3. Ahmadov, F., Valiyev J. The evaluation of small and medium enterprises role in economic development of Azerbaijan // 37th International Scientific Conference on Economic and Social Development, – Baku: Socio Economic Problems of Sustainable Development, 14-15 February, – 2019, p. 397-408.
4. A comparative study on development of small and medium enterprises (SMEs) in Azerbaijan / Vugar Bayramov, Rashad Hasanov, Leyla Aghayarli, Zaur Kadyrov [et al.] – Baku: // Center for Economic and Social Development (CESD), – 2017. – 74 p.

5. Cania L., Nexhipi O., Korsita B. The role of smes in economic development – an empirical study of Albania // 13th International Conference of ASECU, – Durres: Social and Economic Challenges in Europe 2016-2020, May 19-20, – 2017, p. 36-42.
6. Alijanova S. International experience in ensuring the stability of small and medium-sized enterprises and their role in the Azerbaijani economy, // 37th International Scientific Conference on Economic and Social Development, – Baku: Socio Economic Problems of Sustainable Development, 14-15 February, – 2019, p. 1228-1238.
7. Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı: [Elektron resurs] - https://www.stat.gov.az/source/entrepreneurship/
8. Məmmədov, E.Q. Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri / E.Məmmədov. – Bakı: Gənclik Nəşriyyatı, – 2013. – 172 s.

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ
**(rüblük elmi və praktik jurnal)**

## MÜƏLLİF ÜÇÜN QAYDALAR

1. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifəsi, ad və soyadı, çalışdığı qurum və elektron poçt (e-posta) ünvanı, iş və mobil telefon nömrələri göstərilməlidir.
2. Məqalə xülasə açar söz (ən çox 5 söz), (azərbaycan, ingilis və rus dillərində), giriş, əsas hissə, nəticə, mənbələr, əlavələr, şəkil və cədvəllər daxil olmaqla **10 səhifədən** az olmamalıdır. Elektron ünvanı: **yadulla.hasanli@unec.edu.az**; **elmixeberler2018@gmail.com**
3. Məqalənin xülasəsi **200-250 sözdən** çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən və ya formalaşdırılan metodları, hansı suallara cavab verildiyini və tətbiq dairəsini göstərməli, giriş və nəticə hissəsi kimi yazılmamalıdır.
4. Məqalənin xülasəsi məqalənin məzmumuna uyğun olmalıdır. Xülasə elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.
5. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və. s aydın şəkildə qeyd olunmalıdır.
6. Məqalə A4 formatında, **1,5 (bir tam onda beş) intervalla**, **Times New Roman 14 şriftilə** yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxarıdan 25 mm və aşağıdan 20 mm**)** boşluq buraxılmalıdır.
7. Məqalə **azərbaycan, ingilis və rus dillərində** qəbul ediləcəkdir.
8. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
9. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.
10. Məqalələr orijinal olmalı və əvvəllər başqa milli və ya beynəlxalq jurnallara və konfranslara təqdim edilməməlidir.
11. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim ediləcəkdir.
12. Məqalənin qəbulu və rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.

# SCIENCE REVIEWS AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS (quarterly scientific and practical journal)

## NOTES FOR CONTRIBUTORS

1. Articles not published or submitted for publication elsewhere are accepted in Azerbaijani, English and Russian.
2. Articles should be typed in A4 format, **with 1.5 line spacing, font Times New Roman**, of **not less than 10 pages**, with gaps at the edges (left 30 mm, right 15 mm, 25 mm from the top and bottom 20 mm). Articles should be sent official e-mail address of the journal **(yadulla.hasanli@unec.edu.az; elmixeberler2018@gmail.com).**
3. **Article shall not be less than 10 pages**, including: keywords (in Azerbaijani, English and Russian), abstracts (Azeri, English and Russian), record, main part, conclusions, references, applications, graphics and tables.
4. Abstract of the article should be appropriate to its content.
5. The first page should include (i) the title of the article; (ii) the name(s) of the author(s); (iii) institutional affiliation(s) of the author(s); (iv) an abstract of not more than 200-250 words in English (text of abstracts must be consist of sections of "purpose", "design/methodology/approach", "findings", "research limitations/ implications", "practical im-plycations" and "originality/value"); (v) keywords must not be more than 5 words; (vi) JEL codes. The name, address, e-mail address, phone and fax numbers and academically sphere of interest of the author(s) should be indicated on a separate page.
6. The article should contain links to scientific sources. Provided later in the article references must be numbered not in alphabetical order, and in a sequence that occurs in the text link literature and denoted as [1] or [1, p 119]. If the text is repeated reference to the same literature, the other in the text, this refers literature should be given the previous number. In the list of references should be given priority monographs, etc. the last 5-10 years.
7. Articles recommended or submitted for publication by the editor or one of the specialist members of the Editorial Board after reviewing secret reviewed.
8. Consent or refusal of articles declared after a discussion of the Editorial Board.

# НАУЧНЫЕ ВЕСТИ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВЕННОГО ЭКОНОМИЧЕСКОГО УНИВЕРСИТЕТА
**(квартальный научный и практический журнал)**

## ПРАВИЛА ДЛЯ АВТОРОВ:

1. Статьи принимаются на азербайджанском, английском и русском языках.
2. Статьи должны быть написаны в формате А4, **с интервалом в 1,5**, шрифтом **Times New Roman**, с пропусками по краям (слева 30 мм, справа 15 мм, сверху 25 мм и снизу 20 мм). Электронная почта: **yadulla.hasanli@unec.edu.az; elmixeberler2018@gmail.com**
3. Должны быть указаны: название статьи, автор(ы), ученая степень, должность, структуры, где они работают, электронная почта, номера рабочего и мобильного телефонов автора(ов).
4. **Статья не должна быть меньше 10 страниц**, включая: резюме на (азербайджанском, английском и русском языках), ключевые слова (не более 5 слов на азербайджанском, английском и русском языках), введение, основную часть, выводы, источники, приложения, рисунки и таблицы.
5. Резюме статьи должно быть не более 200-250 слов, показывать цель, значение и место исследования в научной периодике, используемые или формируемые методы, на какие вопросы отвечает и область применения, не должно быть написано, как введение и выводы.
6. Резюме статьи должно соответствовать ее содержанию.
7. В конце научной статьи должны быть четко отмечены научная новизна, практическая значимость, экономическая эффективность и т.д. работы в соответствии с характером научной области статьи.
8. В статье должны быть ссылки на научные источники. Предоставляемый в конце статьи список литературы должен быть пронумерован не в алфавитной последовательности, а в последовательности, в которой встречается в тексте ссылаемая литература и обозначаться как [1] или [1, стр.119]. Если в тексте есть повторная ссылка на одну и ту же литературу, то эта ссылаемая литература должна быть указана предыдущим номером. В списке литературы должно быть отдано предпочтение научным статьям, монографиям и т.д. последних 5-10 лет.
9. Статьи должны быть оригинальны и ранее не представлены в другие национальные или международные журналы.
10. Статьи рекомендуются или представляются к печати редактором или одним из специалистов – членов редакционного совета, после тайного рецензирования рецензирующих.
11. Согласие или отказ в приеме статьи объявляется после ее обсуждения редакционным советом журнала.

**Korrektor: Şəfiqə Zahid qızı Bağırova**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ**

**(rüblük, elmi və praktiki)**

## MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR

1. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları, iş və mobil telefon nömrələri göstərilməlidir.

2. Məqalə xülasə açar söz (azərbaycan, ingilis və rus dillərində, ən çox 5 söz), (azərbaycan, ingilis və rus dillərində), giriş, əsas hissə, nəticə, mənbələr, əlavələr, şəkil və cədvəllər daxil olmaqla **10 səhifədən** az olmamalıdır. Elektron ünvanı: **yadulla.hasanli@unec.edu.az**; **elmixeberler2018@gmail.com**

3. Məqalənin xülasəsi **200-250 sözdən** çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən və ya formalaşdırılan metodları, hansı suallara cavab verildiyini və tətbiq dairəsini göstərməli, giriş və nəticə hissəsi kimi yazılmamalıdır.

4. Məqalənin xülasəsi məqalənin məzmumuna uyğun olmalıdır. Xülasə elmi və qramatik baxımdan ciddi redaktə olunmalıdır.

5. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və. s aydın şəkildə qeyd olunmalıdır.

6. Məqalə A4 formatında, **1,5 (bir tam onda beş) intervalla**, **Times New Roman 14 şriftilə** yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxardan 25 mm və aşağıdan 20 mm) boşluq buraxılmalıdır.

7. Məqalə **azərbaycan, ingilis və rus dillərində** qəbul ediləcəkdir.

8. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

10. Məqalələr orijinal olmalı və əvvəllər başqa milli və ya beynəlxalq jurnallara və konfranslara təqdim edilməməlidir.

11. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim ediləcəkdir.

12. Məqalənin qəbulu və rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.

